22_27 IYUl-QARA.qxd 6/18/2026 8:34 PM Page 1

UNIKAL

№22 (2302) 19 iyun 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

# Məmurların tender gizlinləri: Yeni həbslər qaçılmazdır



Səh.8



## Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimi keçirildi

*İyunun 18-də Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Əvvəlcə birgə foto çəkdirildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Sonra "Qurani-Kərim"dən ayə oxundu. Daha sonra İslam İnkişaf Bankı (IsDB) haqqında videoçarx nümayiş olundu. Dövlətimizin başçısı tədbirdə çıxış etdi.*

*Prezident İlham Əliyevin çıxışı*

*-İslam İnkişaf Bankı Qrupunun hörmətli cənab sədri. Əziz qonaqlar, xanımlar və cənablar. Mən İllik Toplantının bütün iştirakçılarını salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Qrupa, onun sədrinə və bütün heyətə Azərbaycanı İllik Toplantıya ev sahibliyi edən ölkə kimi seçdiklərinə görə olduqca minnətdaram. Bu, bizim üçün böyük şərəfdir və aramızda güclü əlaqələrin olmasını bir daha göstərir. Mən Azərbaycanda islahatlara verdiyi davamlı dəstəyə, Bankın gələcəyə doğru irəliləməsində planlarına və ölkəmizə səmimi münasibətinə görə cənab sədr doktor Əl-Casirə şəxsən təşəkkürümü bildirmək istərdim.*

Səh.3

## "Gənclərin mütləq əksəriyyəti sosial şəbəkələrin əsirinə çevrilib"



*Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, məktəbli formasına dair vahid yanaşmanın təmin edilməsindən, müəllimlər üçün geyim tələblərinə dair vahid yanaşmanın tətbiq olunmasından, məktəblərdə şagirdlərin "TikTok"a çıxışının bloklanmasından...*

Səh.4

## Dərman monopolistlərinin ağlasığmaz oyunları



*2026-cı ilin may ayında Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) tərəfindən ümumilikdə 56 aptekdə yoxlama aparılıb. Monitorinqlərdən biri Bakı şəhərində, 55-i isə respublikanın digər şəhər və rayonlarında yerləşən apteklərdə həyata keçirilib. Yoxlamaların 55-i planlı, biri isə plandankənar olub.*

Səh.5

## Azərbaycanda uşaqların sosial şəbəkələrə çıxışı ilə bağlı yeni tələblər



*Azərbaycanda sosial şəbəkələrdən istifadə ilə bağlı yeni qaydaların tətbiqi gündəmə gəlib. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna dəyişiklik layihəsi Milli Məclisin İnsan hüquqları, Ailə, qadın və uşaq məsələləri, eləcə də Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında müzakirəyə çıxarılıb.*

Səh.11

22_27 IYUl-QARA.qxd 6/18/2026 8:34 PM Page 2



# Aygün Kazımovadan "Məclis" fırtınası



***Xalq artisti Aygün Kazımova yeni təqdim etdiyi "Məclis" mahnısı ilə rəqəmsal platformaları fəth edərək böyük uğura imza atıb.***

Axşam.az xəbər verir ki, mahnı qısa müddətdə dinləyicilərin marağını qazanaraq trend olub və gündəmi zəbt edib. Belə ki, "Məclis" hazırda "YouTube" trend siyahısında ilk 3-lükdə qərarlaşıb. Mahnının rəsmi klipi isə bir neçə gün ərzində 766 mindən çox baxış toplayıb.

TikTok-da da mahnı böyük rezonans doğurub. İstifadəçilər "Məclis"in sədaları altında 15 mindən çox video paylaşaraq trendə çevrilməsinə səbəb olublar.

Bununla yanaşı, Pop kraliçanın mahnısı Türkiyədə də maraqla qarşılanıb. "Spotify"ın məşhur Türkiyə rap pleylistlərində yer alan "Məclis" müxtəlif musiqi auditoriyalarının diqqətini çəkməyi bacarıb. Eyni zamanda, "Apple Music" platformasında da ən çox dinlənilən mahnılar arasında ilk 5-liyə yüksələrək növbəti uğurunu əldə edib.

Qeyd edək ki, "Məclis" son günlər sosial şəbəkələrdə ən çox paylaşılan və müzakirə olunan yerli mahnılardan biri hesab olunur. Bəstənin söz və musiqisi Abbas İsmayılova (Asoundady) məxsusdur.

# İzzət Bağırov: "Zalı bağlatdırıb konsertə tək baxa bilər, məndən 12 dəvətnamə istəyir"

***Müğənni İzzət Bağırov canlı efirdə səsləndirdiyi fikirlərlə diqqət çəkib.***

Sənətçi konsert biletləri və tamaşaçı münasibəti ilə bağlı maraqlı açıqlamalar verib. Onun sözlərinə görə, bəzi imkanlı şəxslər üçün pulun xüsusi əhəmiyyəti yoxdur.

"O adam üçün pul heç nədir. İstəsə, bütün zalı bağlatdırıb konsertə tək baxar. Amma elə adam var ki, səndən dəvətnamə istəyir. Hətta bir yox, 12 dənə dəvətnamə tələb edir", - deyə ifaçı bildirib.

İzzət Bağırov əlavə edib ki, müğənnilər adətən ilk sıralardakı biletlərin satılmasına üstünlük verirlər. Çünki həmin yerlər ən bahalı kateqoriyaya aid olur və konsertin maddi tərəfinə ciddi dəstək verir.

Sənətçi xarici ifaçıların konsertlərinə marağın daha çox olduğunu da vurğulayıb. O qeyd edib ki, tamaşaçılar bəzi xarici sənətçilərin çıxışlarına 500 m xərcləyərək bilet alırlar.



İzzət Bağırovun bu fikirləri sosial şəbəkələrdə müzakirələrə səbəb olub və izləyicilər arasında fərqli rəylər doğurub.



# "Mirkamilə görə məni qınayırlar" - Mələkxanım Eyubova

***"Mirkamili çox sevirik. O gün olsun yanımda əyləşəsən. Bizi də qınayırlar. Məni görüb soruşurlar: nə qədər deyim, Mirkamil gələcək. Toparlan, gəl səhnəyə, yanımızda ol".***

Bu sözləri Xalq artisti Mələkxanım Eyubova "Qonaqcanlı" verilişində deyib. Muğam ifaçısı proqrama zəng edən bacısı oğlu, müğənni Mirkamil Kamilova səslənib. O bildirib ki, Mirkamilə görə onu da qınayırlar.

Mirkamil isə "Müəyyən məsələlər var, öz həllini tapsın, yeni bir şey təqdim edərik. Köhnə mövzulardan yorulmuşam" cavabını verib.

Qeyd edək ki, müğənni 2014-cü ildə ürəyindən əməliyyat olunmuşdu. Bu günlərdə isə o, ikinci dəfə ürəyindən əməliyyat olunub. (Axşam.az)

# Şəbnəm Tovuzlunun videosu müzakirə yaratdı

***Müğənni Şəbnəm Tovuzlu sosial şəbəkədə yayılan görüntüləri ilə diqqət mərkəzinə düşüb.***



Sənətçinin səfər zamanı lentə alınan videosu qısa müddətdə izləyicilər arasında geniş müzakirələrə səbəb olub. Paylaşılan kadrlarda Şəbnəm Tovuzlunun istirahət etdiyi anlar əks olunub.

Xüsusilə ifaçının yataqdan çəkilmiş görüntüləri sosial media istifadəçilərinin marağına səbəb olub. Video müxtəlif platformalarda sürətlə yayılaraq çoxsaylı şərhlər toplayıb.

Bəzi izləyicilər görüntüləri maraqlı və səmimi hesab etsələr də, digərləri mövzu ilə bağlı fərqli fikirlər səsləndiriblər.

# "Bu gün də onun ağrı, acısını hiss edirəm" - İlqar Xəyal

***Müğənni İlqar Xəyalın peşəkar idmanla bağlı etdiyi açıqlamalar diqqət çəkib.***



Sənətçi uzun illər idmanla məşğul olduğunu və peşəkar idmanın sağlamlığa zərərli olduğunu bildirib:

"Uzun illər idmanla məşğul olmuşam. Peşəkar idman sağlamlıq üçün çox zərərlidir. Bu gün də onun ağrı və acısını oynaqlarımda hiss edirəm. Bunu peşəkar idmançılar da təsdiq edə bilər. Oynaq ağrılarına, ürək çatışmazlığına, qan azlığı, osteoporoz (sümük ərimesi) kimi problemlərə səbəb olur". (Axşam.az)

22_27 IYUl-QARA.qxd 6/18/2026 8:35 PM Page 3






## Adil Kərimli UNESCO-nun 11-ci sessiyasında ölkəmizi təmsil edib

***İyunun 17-də UNESCO-nun Baş qərargahında Qeyri-maddi mədəni irsin qorunması haqqında 2003-cü il Konvensiyasının Tərəf Dövlətlərinin Baş Assambleyasının 11-ci sessiyası keçirilib.***

"Unikal" xəbər verir ki, sessiyada Azərbaycan nümayəndə heyətinə mədəniyyət naziri Adil Kərimli rəhbərlik edib.




Nazir çıxışında Azərbaycanın qeyri-maddi mədəni irsin qorunması və təbliği sahəsində həyata keçirdiyi tədbirlər, milli irs nümunələrinin UNESCO siyahılarında təmsil olunması və bu istiqamətdə beynəlxalq əməkdaşlığın əhəmiyyəti barədə danışıb.

Bildirilib ki, Azərbaycan qeyri-maddi mədəni irsin qorunmasını dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyən edib və bu sahədə UNESCO ilə sıx əməkdaşlığı davam etdirir.

Sessiya çərçivəsində konvensiyanın həyata keçirilməsi, irsin qorunması mexanizmlərinin təkmilləşdirilməsi və beynəlxalq əməkdaşlığın inkişafı ilə bağlı məsələlər müzakirə olunub.

## Əhalinin sayı açıqlandı

***Ölkə əhalisinin sayı 2026-cı il may ayının 1-i vəziyyətinə görə, 7987 nəfər və ya 0,1 faiz artıb.***



"Unikal" xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Belə ki, əhalinin satı 10 milyon 270 min 338 nəfərə çatıb.

Ölkə əhalisinin 54,3 faizini şəhər, 45,7 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

# Məmurların tender maxinasiyasının gizlinləri

## Dövlət satınalmalarında şəffaflıq şübhələri davam edir - Belə getsə, yeni həbslər qaçılmazdır

***2025-ci ildə Azərbaycanda keçirilən bir çox dövlət satınalmalarının şəffaflığı ciddi şübhələr doğurur. Bunu Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun bir müddət öncə rəhbərlik etdiyi qurumun ötənilki fəaliyyəti ilə bağlı hesabatının Milli Məclisdə - İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirəsi zamanı çıxışı da təsdiqləyir.***

Gülməmmədov həmin çıxışında bildirmişdi ki, Azərbaycanda dövlət satınalmalarının əhəmiyyətli hissəsi müsabiqəsiz üsulla həyata keçirilib. Onun sözlərinə görə, 2025-ci ilin iş planı çərçivəsində keçirilmiş kənar dövlət maliyyə nəzarəti tədbirləri zamanı ümumilikdə 3 560 satınalma araşdırılıb və bu proseslər 3,8 milyard manat vəsaiti əhatə edib. Sitat: "Bu satınalmaların 60 %-i - 2 119-u müsabiqəsiz, yəni bir mənbədən satınalma metodu ilə həyata keçirilib və onların ümumi dəyəri 2,0 milyard manatdan bir qədər çox olub. Audit və analitik fəaliyyətlər nəticəsində aşkar edilmiş nöqsanların 51,6 %-i büdcə qanunvericiliyi, 24,1 %-i isə dövlət satınalmaları ilə bağlı olub".

Sədr bildirmişdi ki, satınalmalar sahəsində əsas problemlər müqavilələrin əsassız bölünməsi, satınalma ilə əhatə olunmayan xərclər, bir mənbədən satınalmanın zəruriliyinin düzgün əsaslandırılmaması, eləcə də müqavilə şərtlərinin dəyişdirilməsi ilə bağlıdır. Sitat: "13 qurumda 30 halda müqavilə məbləğindən artıq xərclərə yol verilib. Bununla yanaşı, rəqabətli satınalmaların təxminən yarısında müqavilə məbləğləri ehtimal olunan qiymətdən 20 % və daha çox fərqlənib. Eyni zamanda, bir mənbədən satınalma zamanı əksər hallarda ehtimal olunan qiymət hesablanmır və bu, yalnız 2 % hallarda tətbiq olunub".

Hesablama Palatasının sədri həmçinin qeyd etmişdi ki, satınalmalar ilin gedişində qeyri-bərabər bölüşdürülür: "Belə ki, satınalmaların 60 %-i ilin ikinci yarısında, 31,2 %-i isə son rübdə həyata keçirilib. 1 400-dən çox təşkilatın 900-dən çoxunda (64 %-də) satınalma prosesinə yalnız ikinci rübdən başlanılıb. Müqavilələrin təxminən 30 %-i tam icra olunmayıb, daxili nəzarət mexanizmləri isə yalnız 10 % hallarda effektiv hesab olunur".

Sədr vurğulamışdı ki, son illərdə satınalma sahəsində şəffaflığın artırılması istiqamətində islahatlar aparılsa da, yalnız elektronlaşma mövcud problemlərin tam aradan qaldırılması üçün kifayət etmir.

Qeyd edək ki, tenderlərin şəffaflığı və ədalətliliyi Azərbaycanda uzun müddətdir müzakirə mövzusudur. Bu istiqamədəki şübhələrin heç də əsassız olmadığı isə çoxsaylı məmur həbsləri zamanı öz təsdiqini tapıb. Belə ki, son illərdə korrupsiya səbəbindən elə iş başındaca qandallanan vəzifə sahiblərinin cinayət işlərindən aydın görünür ki, dövlət satınalmaları bəzi məmurlar üçün əsas mənimsəmə mənbələrindən birinə çevrilib.

Digər tərəfdən, Hesablama Palatasının az qala bütün auditlərində tenderlərlə bağlı ciddi nöqsanların aşkarlanması adət halını alıb. Məsələn, 2025-ci ilin I yarısında nəticələri rəsmiləşdirilmiş auditlər üzrə maliyyə hesabatlılığında ümumilikdə 105,1 milyon manat təhrif aşkarlanmışdı. Həmin vaxt həyata keçirilmiş audit tədbirləri zamanı aşkarlanan və ən çox təkrarlanan maliyyə pozuntuları arasında dövlət satınalmaları ilə bağlı aşağıdakı qanunsuzluqlar da vardı:

- "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinin pozulması - satınalma planlarının hazırlanması və icrasında nöqsanlar;
- Tender komissiyalarının fəaliyyəti zamanı şəffaflıq və rəqabət prinsiplərinə əməl olunmaması;
- Satınalma müqavilələrinin icrasında gecikmələr və aşağı icra göstəriciləri...



Və ya Azərbaycanda çox aşağı nizamnamə kapitalına malik şirkətlərin külli miqdarda vergi borcu olması ilə yanaşı, böyük məbləğli tenderlər qazanması da adi hal alıb. Nəticədə onların fəaliyyəti ictimaiyyət arasında şəffaflıq və qanunçuluqla bağlı suallar, eyni zamanda dövlət satınalma müsabiqələrinin ədalətli keçirilməsinə dair şübhələr doğurur.

Digər tərəfdən, sözügedən şirkətlərin əksər hallarda hansısa məmurla birbaşa və ya dolayısı ilə bağlı olduğu yönündə qənaət hakimdir. Elə həmin məmur dəstəyi ilə də 5-10 manatlıq şirkətlərin yüz minlərlə, milyonlarla manatlıq tenderlərin qalibi seçildiyi, iri vergi borclarının bir qisminin isə məhz bu tenderlərin icrası prosesində yarandığı ehtimal olunur.

Bəzi iqtisadçı ekspertlər deyirlər ki, cüzi nizamnamə kapitalı ilə yaradılan, lakin böyük məbləğli tenderlərin qalibi elan edilən şirkətlər əsasən birdəfəlik, ən yaxşı halda qısa ömürlü şirkətlərdir və onlar məhz tenderlərdə iştirak etmək üçün yaradılırlar. Hər hansı tenderdə qalib gəlirlər, əldə etdikləri vəsaitlər isə onların sahibləri arasında bölüşdürülür, sonra da ləğv olunurlar. Bununla da həm vergilərdən yayınmağa cəhd edir, həm də özlərini gələcək yoxlamalardan sığortalayırlar. Şirkətlərin bir çoxunun əksər hallarda tender keçirən qurumların rəhbərlərinə bu və ya digər formada aid olduğuna da diqqət çəkən ekspertlər dövlət satınalmaları sahəsində şəffaflığın hələ də ürəkaçan səviyyədə olmadığını, nəticə etibarilə bunun kimlərəsə manipulyasiya imkanı verdiyi düşüncəsindədirlər.

"Bir çox hallarda tenderi udan şirkətlərin elə həmin dövət qurumu tərəfindən yaradıldığı üzə çıxır. Heç kimin tanımadığı və başqa qurumların keçirdiyi tenderlərdə "gözə dəyməyən", bəzən nizamnamə kapitalı 10-20 manat olan şirkətlərin rəhbərləri isə adətən "təsisçisi" olan qurumun yaxın qohumları olur. Bu oyunun qurulmasının arxasında dayanan əsas məsələ isə sifariş veriləcək şirkətdən məbləğin bir hissəsinin geri alınmasıdır. Tərəflər bunu "otkat" adlandırırlar. Pulun geri qaytarılması müxtəlif üsullarla həyata keçirilir. "Otkat"-ın əvəzinə isə sifarişçiyə qiymətləri sərbəst müəyyənləşdirmək hüququ verilir, o, məsələn 1 manatlıq işin dəyərini 10 manata qaldıra da, keyfiyyətsiz məhsulu yuxarı qiymətlərlə "sırıya" da bilər. Nəticədə görülən işin keyfiyyətsiz olması isə tərəfləri düşündürmür. Hər halda vaxtı çatanda "altından çıxmaq" üçün variantlar tapılacaq" - bu mövzuda vaxtilə Bizim.Media-nın araşdırmasında deyilirdi. Fikrimizcə, əlavə sözə ehtiyac qalmır.

Bununla belə, onu da vurğulamağa ehtiyac var: illər dəyişir, ancaq bir çox məmurların tenderlərə münasibəti dəyişmir. Bəlkə də, müəyyən vəzifə sahibləri üçün dövlət satınalmaları büdcə vəsaitlərini talamağın ən "rahat" yollarından biri kimi görünməyə davam edir. Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun ötən il keçirilən tenderlərlə bağlı ifadə etdiyi nöqsanlar da bunu bir daha təsdiqləyir. Və bir halda ki, dövlət satınalmalarında şübhəli məqamlar qalır, deməli, qarşıda bizi yeni məmur həbsləri də gözləyə bilər...

***Sənan Mirzə***

# Dövlət qulluqçusu olmaq üstünlük deyil, məsuliyyətdir...

***"Müstəqil Azərbaycan Respublikasında dövlət qulluğunda çalışmaq hər bir insan üçün son dərəcə şərəfli işdir. Bu o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır".***

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

23 iyun - Azərbaycanda dövlət qulluqçularının peşə bayramı günüdür. Dövlət qulluqçularının peşə bayramı günü Prezident İlham Əliyevin 2006-cı il 25 may tarixli Sərəncamına əsasən qeyd olunur.

Dövlət xidmətinin demokratik, hüquqi və dünyəvi dövlətin yaradılmasındakı rolu və BMT Baş Məclisi tərəfindən iyunun 23-nün Birləşmiş Millətlər Təşkilatının Dövlət Qulluğu Günü elan edilməsi nəzərə alınaraq, bu tarix Azərbaycanda dövlət qulluqçularının peşə bayramı günü elan edilib.

Dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsidir.

Xatırlatmaq yerinə düşər ki, 2000-ci il iyulun 21-də "Dövlət qulluğu haqqında" Qanunu qəbul olunub. Bununla da Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulub, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri, onların hüquq və vəzifələri müəyyənləşdirilib. "Dövlət qulluğu haqqında" Qanun qəbul edildikdən sonra mütəmadi olaraq təkmilləşdirilib, 180-dən artıq dəyişikliklə çox mükəmməl bir hüquqi akt yaradılıb.

Son illərdə isə bütün sahələrdə olduğu kimi, dövlət qulluğu sahəsində də məqsədyönlü islahatlar aparılıb. Bu mənada Prezident İlham Əliyevin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nı xüsusi qeyd etmək lazımdır. Strategiyanın icrası üzrə Fəaliyyət Planı çərçivəsində müvafiq dövlət qurumları tərəfindən dövlət orqanlarının kateqoriya və iyerarxiyasının müəyyənləşdirilməsi, bu orqanların struktur bölmələrinin növləri və yaradılması qaydası, dövlət qulluğu vəzifələrinin növləri, təsnifatları və vəzifə adları, rəhbər vəzifəli şəxslər üçün insan resurslarının idarə edilməsi üzrə təlim modullarının və proqramlarının hazırlanması, kadr qurumlarının işçilərin sayına mütənasib olaraq təşkili, bu qurumların nümunəvi əsasnaməsinin hazırlanması, dövlət qulluqçularının peşəkar inkişafı və təhsili, onların məlumat bazalarının və reyestrinin yaradılması, dövlət qulluqçularına bərabər tutulan publik hüquqi şəxslərin əməkdaşlarının statusunun müəyyən edilməsi və digər məsələlər öz həllini tapıb.

Nəticə etibarilə illər uzunu aparılan islahatlar ona gətirib çıxarıb ki:

- dövlət qulluqçularının hüquqları və vəzifələri konkret şəkildə müəyyənləşdirilib;
- dövlət qulluqçularının məsuliyyəti əhəmiyyətli şəkildə yüksəlib;
- dövlət qulluğunda vaxtilə mövcud olan boşluqlar doldurulub;
- dövlət qulluğunun üstünlükləri ciddi şəkildə artırılıb, onların həm vəzifə borclarını, həm də şəxsi təminatlarını yerinə yetirmək üçün bütün imkanlar yaradılıb;
- dövlət qulluğu siyasəti özünün əsas məqsədinə - ölkəmizdə səmərəli, məsuliyyətli və demokratik idarəçiliyin yaradılmasına, dövlət orqanlarının fəaliyyətində çevikliyin və şəffaflığın gücləndirilməsinə, vətəndaşların qayğı və ehtiyaclarının yüksək səviyyədə təmin edilməsinə nail olub.

Hazırda Azərbaycanda dövlət qulluğunun daha da təkmilləşdirilməsi istiqamətində davamlı və düşünülmüş addımlar atılmağa davam edir. Dövlət rəhbərinin də öz çıxışlarında dəfələrlə vurğuladığı kimi, dövlət qulluqçularının xalqın xidmətçisi olduğu bir daha xatırlanır, onların əməyi yüksək qiymətləndirilir.

Bu əlamətdar gün münasibətilə "Unikal"a açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov da Prezident İlham Əliyevin dövlət qulluğuna dair səsləndirdiyi qiymətli fikirlərə diqqət çəkib. "Ölkə başçısı dövlət qulluqçularına müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanının etibar edildiyini mütəmadi şəkildə vurğulayır. Hər bir şəxs dərindən dərk etməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır. Tutduğu vəzifənin səviyyəsindən və əhəmiyyətindən asılı olmayaraq, hər bir dövlət qulluqçusu həmişə xatırlamalıdır ki, o, xalqın xidmətçisidir. İnsanlara xidmət etmək, onların qayğıları ilə yaşamaq dövlət qulluqçusunun əsas vəzifəsidir" - deyə Nəsirov bildirib.



Millət vəkili həmin kontekstdə xüsusi olaraq qeyd edib ki, Azərbaycanın müasir dövlət quruluşu sisteminin formalaşması və inkişafında, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri bu gün də özünü aydın şəkildə göstərməkdədir: "Dövlət qulluğu sahəsində köklü islahatlara məhz Ulu Öndərin ölkə rəhbərliyi dövründə başlanılmışdır. Heydər Əliyevin rəhbərliyi altında hazırlanan və 1995-ci ilin noyabrında ümumxalq səsverməsi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası milli maraqların həllinə qadir olan, müasir tələblərə cavab verən dövlət idarəçiliyi prinsiplərini təsbit etdi. Bu gün biz böyük fəxarət hissi ilə qeyd edirik ki, bütün sahələrdə olduğu kimi, bu sferada da ölkə Prezidenti cənab İlham Əliyev Ulu Öndərin siyasətini uğurla davam etdirir. Bu istiqamətdə hüquqi-normativ bazanın möhkəmləndirilməsi ilə bağlı çox ciddi və qətiyyətli addımlar atılıb. 21 iyul 2000-ci ildə "Dövlət qulluğu haqqında" Qanunun qəbul edilməsini xüsusi vurğulamalıyıq. Məhz həmin qanunla Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşmasının fundamental əsası qoyuldu. Bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri, onların hüquq və vəzifələri dəqiq müəyyənləşdirildi".

Sovet dövründə formalaşan ənənəvi məmur obrazı ilə müqayisədə müstəqillik dövründə, xüsusən son illərdə Azərbaycanda dövlət qulluğu sahəsində hansı keyfiyyət dəyişikliyi baş verib? Bu suala cavab olaraq Elman Nəsirov qeyd edib ki, müasir Azərbaycanın dövlət qulluğu sisteminin əsas prinsipləri sovet dönəmindəkindən köklü şəkildə fərqlənir: "İstər yanaşma tərzi, istərsə də fəlsəfə baxımından keçmiş sovet sistemi ilə müasir dövlətimizin prinsipləri tamamilə fərqli qütblərdədir. Müasir dövrün dövlət qulluqçusu dövlət qulluğunda olmağın imtiyaz deyil, məsuliyyət və xalqa xidmət missiyası olduğunun tam fərqindədir. Eyni fikri sovet dönəmi ilə bağlı söyləmək çox çətin idi. Xüsusilə də keçmiş sistemdə dövlət qulluqçularının sosial rifahı məsələləri olduqca aşağı səviyyədə idi. Müasir və müstəqil Azərbaycanda isə dövlət qulluqçularının sosial rifahının yüksəldilməsi, onların güzəranının yaxşılaşdırılması dövlətimizin sosial-iqtisadi siyasətinin əsas prioritet istiqamətlərindən biridir".

E.Nəsirov xatırladıb ki, Konstitusiyamızın 12-ci maddəsində aydın şəkildə qeyd olunur ki, dövlətin ali məqsədi vətəndaşların ləyaqətli həyat səviyyəsinin təmin edilməsidir: "Bu gün tam əminliklə deyə bilərik ki, Azərbaycan cəmiyyətinin ən öncül və aparıcı kəsimi olan dövlət qulluqçuları vətənə, dövlətə xidmət sahəsində üzərlərinə düşən məsuliyyətli vəzifələri uca tutaraq, onları şərəflə yerinə yetirirlər".

***Murad İbrahimli***





## Cenevrədə Azərbaycanın mina problemi ilə bağlı çağırış

***Azərbaycan inkişaf hüququnun, habelə iqtisadi, sosial və mədəni hüquqlar da daxil olmaqla, insan hüquqlarının qorunması və təşviqinin demokratiyanın, sülhün və rifahın mərkəzində dayandığına inanır.***

Bu, Azərbaycanın Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin BMT-nin İnsan Hüquqları Şurasının 62-ci sessiyasında ali komissarın illik hesabatı üzrə interaktiv dialoq zamanı səsləndirilən bəyanatında öz əksini tapıb.

Bəyanatda qeyd olunub ki, Cənubi Qafqaz hazırda qarşıdurmadan uzaq və əməkdaşlıq məkanına çevrilmək üçün tarixi bir şans əldə edib. Bunun faydaları artıq ortadadır. Azərbaycan təkcə yaxın qonşuluqda olan ölkələrə deyil, həm də regionun hüdudlarından çox-çox kənara yeni iqtisadi, ticarət və tranzit perspektivləri açıb və təklif edib.

Sənəddə hökumətin əsas prioritetlərindən birinin çoxsaylı məcburi köçkünlərin öz evlərinə qayıtması ilə yanaşı, yenidənqurma və bərpa fəaliyyəti olduğu diqqətə çatdırılıb, geri qayıtmaq və ləyaqətli yaşayış hüququnun mühüm insan hüquqları olduğu bildirilib. Qeyd olunub ki, bu hüquqların reallaşdırılmasına, eləcə də minlərlə itkin düşmüş şəxsin şəxsiyyətinin müəyyənləşdirilməsinə mane olan amil geniş ərazilərdə külli miqdarda mina və partlamamış hərbi sursatların olmasıdır. Beynəlxalq birlik bu məsələyə laqeyd qalmamağa və həmrəylik nümayiş etdirməyə çağırılıb.

Bəyanatda, həmçinin Avropa İttifaqı daxilində etnik və dini azlıqlara təsir edən irqçilik və ayrı-seçkilik, islamofobiyanın artması və böyüyən sosial dözümsüzlük də daxil olmaqla, insan hüquqları sahəsində davam edən problemlərdən narahatlıq ifadə olunub. Bildirilib ki, miqrantlara və sığınacaq axtaran şəxslərə qarşı qeyri-bərabər rəftar, inteqrasiya qarşısındakı maneələr, habelə ləyaqət, müdafiə və hüquqlara bərabər çıxışla bağlı suallar doğuran təcrübələr barədə hesabatlar bizi narahat etməkdə davam edir. İnsan hüquqları ardıcıl şəkildə və ayrı-seçkiliyə yol verilmədən təşviq edilməli, səmərəli beynəlxalq əməkdaşlıq isə qarşılıqlı hörmətə, obyektivliyə və bərabər standartlara əsaslanmalıdır.

22_27 IYUl-QARA.qxd 6/18/2026 8:35 PM Page 5



## Prezident İslam İnkişaf Bankı Qrupunun sədrinə "Dostluq" ordenini təqdim etdi



***Azərbaycan Prezidenti İlham Əliyev İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casirə "Dostluq" ordenini təqdim edib.***

"Unikal" xəbər verir ki, təqdimetmə Prezidentin Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edərkən baş tutub.

Məhəmməd Süleyman Əl-Casir onun fəaliyyətinə verdiyi yüksək qiymətə görə dövlət başçısına minnətdarlığını bildirdi.

Qeyd edək ki, Məhəmməd Süleyman Əl-Casir Azərbaycanla İslam İnkişaf Bankı arasında əməkdaşlığın inkişafına verdiyi töhfəyə görə Prezident İlham Əliyevin Sərəncamına əsasən bu ordenlə təltif olunub.

## Azərbaycan-Rumıniya strateji tərəfdaşlıq münasibətləri müzakirə olundu



***Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Rumıniya Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Marius-Qabriel Lazurka ilə görüşüb.***

XİN-dən "Unikal"a verilən xəbərə görə, görüş zamanı Azərbaycan ilə Rumıniya arasında strateji tərəfdaşlıq münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri, habelə regional təhlükəsizlik məsələləri müzakirə olunub.

Tərəflər son illər ərzində həyata keçirilən yüksək səviyyəli qarşılıqlı səfərlərin və intensiv siyasi dialoqun ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verdiyini vurğulayıblar. Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın fəaliyyətinin əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olunub.

Görüşdə enerji sahəsinin Azərbaycan-Rumıniya əməkdaşlığının əsas istiqamətlərindən biri olduğu bildirilib, ənənəvi enerji ilə yanaşı, yaşıl enerji və alternativ enerji mənbələri üzrə tərəfdaşlığın inkişafı imkanları nəzərdən keçirilib. Nəqliyyat-kommunikasiya, təhsil, əczaçılıq və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı sərmayələrin təşviqi istiqamətində mövcud potensial müzakirə olunub.

Nazir Ceyhun Bayramov ölkəmizin əlverişli investisiya mühiti barədə məlumat verərək, investorlar üçün yaradılmış imkanları diqqətə çatdırıb. Bu çərçivədə, Ələt Azad İqtisadi Zonasının regional ticarət və logistika mərkəzi kimi artan rolundan bəhs olunub və rumıniyalı şirkətlərin burada fəaliyyət imkanları qeyd edilib.

Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən Avropa İttifaqı ilə əməkdaşlıq kontekstində qarşılıqlı fəaliyyətin əhəmiyyətini vurğulayıblar.

Görüş zamanı həmçinin digər ikitərəfli və regional məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# İlham Əliyev qəbul keçirdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib.***

"Unikal" xəbər verir ki, nümayəndə heyətinə İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir, Beynəlxalq İnkişaf üzrə OPEC Fondunun prezidenti Əbdülhəmid Əl-Xəlifə, Afrikada İqtisadi İnkişaf üzrə Ərəb Bankının prezidenti Abdulla Xəlil Əl-Müseybih, Ərəb Valyuta Fondunun Baş direktoru və İdarə Heyətinin sədri Fəhad Əl-Türki, Səudiyyə İnkişaf Fondunun Baş icraçı direktoru Sultan Əbdürrəhman Əl-Mərşad, Ərəb Körfəzi İnkişaf Proqramının icraçı direktoru Həmmam bin Nasir bin Cureyd, Küveyt Ərəb İqtisadi İnkişaf Fondunun əməliyyat direktoru Tamer Əl-Failakavi, Səudiyyə Ərəbistanı Krallığının maliyyə naziri Məhəmməd Abdulla Əl-Cadan, Küveyt Dövlətinin maliyyə naziri Yaqub Ər-Rifai, Qətər Dövlətinin maliyyə naziri Əli Əhməd Əl-Kuvari və Birləşmiş Ərəb Əmirlikləri Maliyyə Nazirliyinin beynəlxalq maliyyə əlaqələri üzrə nazir müavini Əliabdulla Şərəfi daxildir.



Dövlətimizin başçısı Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərinin İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarında iştirakının əhəmiyyətini qeyd etdi.

Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında fəal əməkdaşlığın qurulduğunu deyən Prezident İlham Əliyev bir çox layihələrin icra mərhələsində olduğunu vurğuladı. Dövlətimizin başçısı imzalanacaq sənədlərin önəminə də toxundu.

Ölkəmizdə olmaqdan məmnunluğunu bildirən İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir qəbula görə nümayəndə heyəti adından Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.

Qonaq rəhbərlik etdiyi qurumla Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsinə dövlətimizin başçısının göstərdiyi dəstəyi yüksək qiymətləndirdi.

Söhbət zamanı Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında tərəfdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı, ölkəmizdə mövcud olan əlverişli investisiya mühitinin Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlarla birgə layihələr həyata keçirmək baxımından əhəmiyyəti qeyd edildi.

Görüşdən sonra Azərbaycan Prezidentinin iştirakı ilə "Sumqayıt Yeni Tullantı Sutəmizləyici Qurğunun tikintisi" layihəsi üzrə Kredit sazişi imzalandı. Həmçinin imzalanmış "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və Ərəb Koordinasiya Qrupu üzvləri arasında "Abşeron yarımadasında 33 yaşayış məntəqəsinin su təchizatı və kanalizasiya sistemlərinin tikintisi layihəsi üzrə əməkdaşlığın genişləndirilməsinə dair Anlaşma Memorandumu" mübadilə olundu.

Daha sonra dövlətimizin başçısı İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casirə "Dostluq" ordenini təqdim etdi.

Məhəmməd Süleyman Əl-Casir onun fəaliyyətinə verdiyi yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Qeyd edək ki, Məhəmməd Süleyman Əl-Casir ölkəmizlə İslam İnkişaf Bankı arasında əməkdaşlığın inkişafına verdiyi töhfəyə görə Prezident İlham Əliyevin Sərəncamına əsasən bu ordenlə təltif olunub.

## Sertifikasiya imtahanında iştirak edən müəllimlərin sayı açıqlandı

***Dövlət ümumi təhsil müəssisələrində çalışan təhsilverənlərin sertifikatlaşdırılması prosesinin test imtahanı mərhələsinin ikinci günü yekunlaşıb.***

"Unikal" xəbər verir ki, bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi məlumat yayıb.

Məlumata görə, test imtahanında 3548 nəfər müəllim iştirak edib, 98% davamiyyət qeydə alınıb.



Bildiririk ki, bu gün təşkil olunan təhsilverənlərin sertifikatlaşdırılması prosesinin test imtahanı mərhələsinin apellyasiya müraciətlərinin qəbuluna 19 iyun saat 12:00-dan etibarən start veriləcək.

Proses və nəticələrlə bağlı hər hansı narazılığı və ya şikayəti olan müəllimlər portal.edu.az platformasının "Sertifikatlaşdırma" bölməsinə daxil olmaqla müraciətlərini ünvanlaya bilərlər.

Qeyd edək ki, müraciətlərin qəbulu 19 iyul saat 12:00-a qədər davam edəcək. Müraciətlərin təhlilindən sonra yekun nəticələr elan ediləcək.

Baş redaktor:
**Zaur Əhməd**

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

## Türkiyə Azərbaycan hərbçiləri üçün təlim keçəcək



***Türkiyə Milli Müdafiə Nazirliyi 2026-2027-ci illərdə Azərbaycan hərbçiləri üçün təlim keçəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirliyin "X" hesabında paylaşım edilib.

Plan çərçivəsində 16 ölkədən - Azərbaycan, Burundi, Banqladeş, Qvineya, Qazaxıstan, Qırğızıstan, Şimali Kipr Türk Cümhuriyyəti, Şimali Makedoniya, Liviya, Macarıstan, Mali, Monqolustan, Özbəkistan, Seneqal, Somali və Türkmənistandan ümumilikdə 448 hərbi qulluqçu üçün təlim kvotası ayrılıb.

## "Xəzəryanı ölkələr arasında əməkdaşlığın bərpa olunmasına ümid edirik" - Zaxarova

***Rusiya ümid edir ki, ABŞ ilə İran arasında uzunmüddətli barışıq Xəzəryanı dövlətlərin beştərəfli formatda tam işini bərpa etməyə imkan verəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirilən brifinqdə bildirib.

"İran münaqişəsi beynəlxalq təhlükəsizliyə mənfi təsir göstərib, o cümlədən, bu, Xəzər regionunda da hiss olunub. Biz ümid edirik ki, ən yaxın vaxtda, münaqişə tərəflərinin əldə olunmuş razılaşmaları imzaladıqdan sonra Xəzəryanı dövlətlər - İran, Qazaxıstan, Türkmənistan, Rusiya və Azərbaycan beştərəfli formatda bundan əvvəl Xəzərdə planlaşdırılmış birgə addımların həyata keçirilməsini davam etdirə bilərlər", - deyə o bildirib.

M.Zaxarova həmçinin vurğulayıb ki, regionda hərtərəfli təhlükəsizliyin təmin edilməsinə dair tədbirlər də daxil olmaqla, belə iş əməkdaşlığın daha da gücləndirilməsi üçün zəruridir.

22_27 IYUl-QARA.qxd 6/18/2026 8:35 PM Page 6



# Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimi keçirildi




***İyunun 18-də Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimi keçirilib.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Əvvəlcə birgə foto çəkdirildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Sonra "Qurani-Kərim"dən ayə oxundu. Daha sonra İslam İnkişaf Bankı (IsDB) haqqında videoçarx nümayiş olundu.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

-İslam İnkişaf Bankı Qrupunun hörmətli cənab sədri. Əziz qonaqlar, xanımlar və cənablar. Mən İllik Toplantının bütün iştirakçılarını salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Qrupa, onun sədrinə və bütün heyətə Azərbaycanı İllik Toplantıya ev sahibliyi edən ölkə kimi seçdiklərinə görə olduqca minnətdaram. Bu, bizim üçün böyük şərəfdir və aramızda güclü əlaqələrin olmasını bir daha göstərir. Mən Azərbaycanda islahatlara verdiyi davamlı dəstəyə, Bankın gələcəyə doğru irəliləməsində planlarına və ölkəmizə səmimi münasibətinə görə cənab sədr doktor Əl-Casirə şəxsən təşəkkürümü bildirmək istərdim.

Doktor Əl-Casir artıq Azərbaycana dəfələrlə səfər edib və həmçinin azad edilmiş ərazilərdə iki dəfə səfərdə olub. Bu isə hamımızda xüsusi məmnunluq yaradır.

Bildiyiniz kimi, Azərbaycan ikinci dəfədir ki, İllik Toplantıya ev sahibliyi edir və bu, həmçinin sıx əlaqələrimizi, əməkdaşlıq səviyyəsini və birgə fəaliyyətin miqyasını aydın şəkildə göstərir. 2010-cu ili çox yaxşı xatırlayıram. O vaxt biz ilk dəfə toplantıya ev sahibliyi edən ölkə idik.

Həmin İllik Toplantı Qrup ilə tərəfdaşlığımıza, eləcə də iqtisadiyyatı şaxələndirmək üçün Azərbaycanın həyata keçirdiyi islahatlara, enerji sektorundan asılılığı azaltmağa güclü təkan verdi. O vaxtdan etibarən Azərbaycanda və ətrafda çox dəyişikliklər baş verdi. Dəyişməyən yeganə məsələ Azərbaycanın sabit və uğurlu inkişafı oldu.

Bu, milli maraqlara əsaslanan, qlobal səhnədə bütün iştirakçılarla yaxşı münasibətlərin qurulmasına, uğurlu inkişafımıza qəti sadiqliyimizə söykənən siyasətimizin təzahürüdür. Uğurlu inkişaf bir çox meyara əsaslanır. Azərbaycan cəmi 35 ildir ki, müstəqildir. Müharibə, işğal, humanitar fəlakət, vətəndaş müharibəsi və digər çətinliklərlə səciyyələnən ilk iki ili istisna etməklə, qalan dövr ölkənin sabit inkişafı ilə yadda qaldı. Bu isə hər hansı ölkənin uğuru üçün əsas ilkin şərtlərdən biridir. Sabitlik pozulduqda biz inkişaf haqqında heç danışa bilmərik. Beləliklə, sabitlik, - yəni bu gün Azərbaycanın reallığını təşkil edən siyasi, iqtisadi və sosial sabitlik, - nəinki inkişafımızın əsas meyarıdır, o cümlədən regional inkişaf göstəricisidir. Çünki Azərbaycan regional və qlobal səviyyədə güclü əlaqələr sayəsində bir çox aspektlərdə artıq mühüm iştirakçıya çevrilib.

Müstəqil xarici siyasətimiz beynəlxalq ictimaiyyətin güclü dəstəyini qazanıb. Dostlarımızın sayı ilbəil artır. Beynəlxalq ictimaiyyətin verdiyi dəstək çox nümunəvi anlarda öz əksini tapır. Məsələn, namizədliyimiz müxtəlif təsisatlar üçün namizədlər siyahısında var idi və biz tam mütləq dəstəyi qazandıq. Bu hal bir neçə il əvvəl BMT-nin Təhlükəsizlik Şurasına namizəd olduğumuz zaman müşahidə edildi. O vaxt biz 155 ölkənin dəstəyini qazandıq.

Bu hal 120 ölkədən ibarət və BMT-dən sonra ikinci ən böyük beynəlxalq qurum olan Qoşulmama Hərəkatının sədrliyinə namizəd olduğumuz zaman özünü büruzə verdi. Biz yekdilliklə seçildik və nəinki seçildik, sonradan sədrliyimiz müddəti yekdilliklə uzadıldı. Bütövlükdə, bu, beynəlxalq dəstəyin təzahürü idi. Bəzən "beynəlxalq ictimaiyyət" sözünü eşitdikdə bəziləri düşünür ki, o, inkişaf etmiş ölkələrdən ibarət bir məhdud qrupdur və əgər belə demək olarsa, bu adı özünə seçən ölkələr tərəfindən belə yanaşılır. Lakin bu, yanlış yanaşmadır.

Beynəlxalq ictimaiyyət bütün dünyadan, BMT-yə üzv olan ölkələrdən ibarətdir. Dünyanın tam mütləq əksəriyyətinin dəstəyini qazanmaq, artıq söylədiyim kimi, həqiqətən, yalnız bəyanatlar əsasında deyil, praktiki addımlara əsaslanan hörməti göstərir. İslam İnkişaf Bankı Qrupunun 2010-cu ildə keçirdiyi İllik Toplantısından sonra biz bir çox beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edən ölkə olmuşuq. Ən sonuncular sırasında əla nəticələrlə seçilən 2024-cü ildə keçirilmiş uğurlu COP29 tədbirini qeyd etmək istərdim. Eyni zamanda, böyük beynəlxalq toplantılardan olan Ümumdünya Şəhərsalma Forumu ötən ay Azərbaycanda uğurla keçirilmişdir. Bir çox digər tədbirlər də gözlənilir.

Bir sözlə bu, fəaliyyətimizin şaxələndirilmiş gündəliyini bir daha göstərir. Azərbaycan Avrasiya ölkələrini birləşdirən, xüsusən də enerji təchizat zəncirlərinin etibarlı olmadığı, o cümlədən enerji təhlükəsizliyinin hər bir ölkənin milli təhlükəsizliyinə çevrilən əsas amillərdən biri hesab edildiyi bir vaxtda onlara lazımi enerjini təchiz edən irimiqyaslı enerji infrastrukturu layihələrini irəli sürən, maliyyələşdirən və icra edən qlobal sahənin mühüm iştirakçısına çevrilib.

Çox müsbət sərmayə siyasəti müxtəlif sahələrə, o cümlədən enerji sahəsinə, Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən, Xəzərdə hasil olunan qazın Avropa bazarlarına çıxaran boru kəmərlərinin çəkilməsinə milyardlarla vəsaiti cəlb etməyə imkan yaratmışdır.

Bu, həqiqətən böyük səylər diplomatiya, siyasi münasibət, qonşularla yaxşı münasibətlər, qonşuların qonşusu ilə əlaqələr, maliyyələşmə, yaxşı nüfuz və güclü iqtisadiyyat tələb edirdi. Beləliklə, həmin meyarlar toplusu hazırda Azərbaycana mühüm enerji təchizatçılarından birinə çevrilmək imkanı yaratdı.

Təbii qaz təchizatı ilə bağlı. Bu gün Azərbaycan boru kəməri ilə qaz təchizatının coğrafiyası baxımından birinci yerdədir. Biz təbii qazı 16 ölkəyə nəql edirik. Onların sayı ilbəil artır və artmaqda davam edəcək. Neft təchizatı daha çox ölkələri əhatə edir və bu, hasilatçı, tranzit ölkələrə və istehlakçıların hamısına fayda gətirir.

Beləliklə, bu, yaradılmış komanda işidir və həqiqətən, layihələrin mürəkkəb icrası, maliyyələşməsi, relyefi, qarşımızda olan müxtəlif siyasi maneələr baxımından unikaldır.

Biz əsasən infrastruktura sərmayə yatıraraq diqqətimizi təkcə ölkə daxilindəki infrastruktur üzərinə yox, ölkə daxilində olan beynəlxalq əhəmiyyətli infrastruktura cəmlədik. Digər sözlə, biz bildiyiniz kimi, Azərbaycanı açıq dənizə çıxışı olmayan ölkədən beynəlxalq nəqliyyat qovşağına çevirməyə, güclü nəqliyyat infrastrukturunu qurmaq üçün coğrafiyamızdan bünövrə kimi istifadə etməyə çalışdıq. Çünki əlbəttə, coğrafiya önəmlidir. Lakin onun üzərinə infrastrukturu əlavə etməsək böyük bir çəkisi olmur. Odur ki, bu gün Azərbaycandan keçən Şərq-Qərb və Şimal-Cənub dəhlizləri sayı artmaqda olan ölkələr üçün çox önəmli təchizat marşrutlarını təmin edir. Sadəcə, xəritəyə nəzər salsaq görərik ki, Azərbaycan Avropa və Asiyanın arasında yerləşir. Coğrafi yerləşmə, əlbəttə ki, gündəlikdən asılı olaraq başağrısı da ola bilər, üstünlük də ola bilər. Bizə gəldikdə bu, təkcə bizim üçün yox, bir çox ölkələr üçün üstünlükdür. Bu gün artıq qeyd etdiyim kimi, Azərbaycandan keçən dəhlizlər bir çox ölkələr üçün əlaqələndirilmiş və koordinasiya olunmuş nəqliyyat vətərini yaradır. Əlbəttə ki, bir çox işlər görülməlidir və yeri gəlmişkən, bu, bizim prioritetlərimizdən biridir.

Azərbaycanın iqtisadi inkişafı müsbətdir və qeyd etdiyim kimi, iqtisadiyyat sabitdir. Biz dəyəri 350 milyard ABŞ dollarından çox olan birbaşa investisiyaları, onların yarısını son 20 ildə demək olar ki, xarici mənbələrdən cəlb edə bilmişik. Bizim investisiya planlarımız davam edir, çünki bu gün investorlar sabit yerlərin axtarışındadır. Əfsuslar olsun ki, vaxt ötdükcə sabit yerlərin sayı artmır. Təəssüf ki, bu, günümüzün reallığıdır. Buna görə yaxşı investisiya mühiti, investisiyaların qorunması, qanunvericilik bazası və artıq həyata keçirilmiş layihələr bizə təkcə enerji sahəsinə yox, həm də qeyri-enerji sahəsinə investisiyaları cəlb etməyə imkan verir ki, bu da, yeri gəlmişkən, bizim prioritetlərimizdən biridir. Biz bu barədə 16 il bundan əvvəl Bakıda keçirilmiş İslam İnkişaf Bankının İllik Toplantısında danışdıq və o vaxtdan bəri biz dəyişmişik.

Bu gün qeyri-neft və qaz sektorunun ÜDM-də payı 70 faizdən artıqdır ki, bu da özlüyündə əlamətdar bir nailiyyətdir. Lakin biz ixracımızda neft, qaz və qeyri-neft və qaz sektorunun balansının dəyişdirilməsini davam etdirmək üçün gərgin çalışmalıyıq. Bu gün ixracımızın mütləq əksəriyyətini enerji resursları təşkil edir. Beləliklə, biz vəziyyəti dəyişmək üçün çox gərgin çalışırıq və bunun üçün əlbəttə ki, bizə daha çox islahatlar, daha çox investisiyalar və yeni bazarlar lazımdır və bu da problemdir. Çünki bazarlar uğrunda, mən belə deyərdim, çox fəal mübarizə gedir. Beləliklə, iqtisadiyyatın şaxələndirilməsi artıq reallıqdır, lakin biz, əlbəttə ki, davam etməliyik.

Biz xarici borcumuzu azaltmağa nail olduq. Bu, mənim tərəfimdən bir neçə il bundan əvvəl qarşıya qoyulmuş bir hədəf idi və biz buna nail olduq və hətta planlaşdırdığımızdan artığına nail olduq. Bu gün xarici borcumuz ÜDM-in yalnız 6 faizini təşkil edir, odur ki, biz yenidən borc götürməyə başladıq. Fasilə yaranmışdır, lakin biz yenidən borc götürməyə başladıq və əlbəttə ki, bizim müraciət etdiyimiz birinci maliyyə institutu İslam İnkişaf Bankı idi. Çünki bizim bu Bankla güclü əlaqələrimiz, ortaq tariximiz və çox məhsuldar, konstruktiv münasibətlərimiz var.

Toplantı zamanı yeni infrastruktur layihələrinə təkan vermək üçün bir çox müqavilələr imzalanacaq və onlar da, öz növbəsində, qeyri-neft sektorunun dəyərinin artmasına gətirib çıxaracaqdır. Beləliklə, xarici borcun aşağı səviyyədə olması, əlbəttə ki, böyük üstünlükdür. Biz daha çox borc götürə bilərik, lakin bunu çox ehtiyatla edəcəyik. Buna baxmayaraq, bizim xarici valyutada olan ehtiyatlarımız xarici borcumuzu demək olar ki, 20 dəfə üstələyir. Hesab edirəm ki, bu göstəriciyə görə Azərbaycan çox sabit maliyyə vəziyyəti, balanslaşdırılmış büdcəsi olan aparıcı ölkələrdən biridir və bu hal reytinqimizi investisiya reytinqinə qaldıran "Moody's" və "Fitch" kimi aparıcı reytinq agentlikləri tərəfindən dəyərləndirilir. Onların verdiyi proqnoz müsbət və sabitdir. Beləliklə, iqtisadi inkişafımızla bağlı hər hansı bir çətinlik görmürük və irimiqyaslı sosial proqramlarımız da buna uyğundur. Ötən bir neçə ildə əhalimizin demək olar ki, 30 faizindən çoxunu əhatə edən bir neçə sosial dəstək layihəsini icra etmişik. Yoxsulluğun və işsizliyin azaldılması da hədəflərimizdən biri idi və biz buna uğurla nail olduq. Bu gün yoxsulluğun və işsizliyin səviyyəsi təqribən 5 faiz təşkil edir. Məşğulluqla bağlı olan məsələlər əhalisi artmaqda olan istənilən digər ölkə kimi, bizim də diqqətimizin mərkəzində olacaq. Çünki əhali artdığı zaman, - təəssüf ki, müsəlman ölkələrində bu tendensiyanın davam etdiyini hamımız bilirik, - bunun, eyni zamanda, özü ilə bir çox çağırışlar gətirdiyini də bilirik. Çünki siz iş yerləri yaratmalısınız, daha çox sosial infrastruktur və ümumiyyətlə, infrastruktur qurmalısınız. Beləliklə, bu məsələ - işsizlik səviyyəsinin çox aşağı səviyyədə saxlanılması həmişə diqqət mərkəzində olacaq.

Əlbəttə ki, 2010-cu ildə keçirdiyimiz toplantıdan bəri baş vermiş əsas dəyişikliklərdən biri Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsidir. 1990-cı illərin əvvəllərində torpaqlarımız işğal edilmişdir və bu da humanitar fəlakətə yol açmışdır. 1990-cı illərin əvvəllərində bizim 1 milyon qaçqın və məcburi köçkünümüz var idi. O vaxt əhalimiz 8 milyon idi, beləliklə, hər səkkiz nəfərdən biri məcburi köçkün, evsiz, işsiz, yaşamaq üçün heç bir maddi imkanı olmayan idi. Bu, həqiqi humanitar fəlakət idi və biz tək qalmışdıq. Müharibə cinayətlərini və Xocalı soyqırımını törətmiş, bizim şəhər və kəndlərimizi dağıtmış, işğal olunmuş ərazilərdə urbisid törətmiş Ermənistana qarşı sanksiya tətbiq olunmadı. Hər gün sanksiyalardan danışılır - sanksiyalar və yenə də sanksiyalar. Haradasa hər hansı bir hadisə baş verən kimi dərhal sanksiyalar tətbiq olunur. Lakin Ermənistana qarşı heç kəs sanksiyalar tətbiq etmədi və bu, ikili standartların, həmçinin bəyan edilən qondarma dəyərlərlə real siyasət arasındakı fərqin açıq təzahürüdür. Əgər beynəlxalq hüququ pozduğuna, suveren dövlətin ərazilərini işğal etdiyinə və müharibə cinayətləri törətdiyinə görə Ermənistana qarşı sanksiyalar tətbiq edilsəydi, iki ölkə arasında münaqişə bu qədər uzun sürməzdi.

Bu münaqişə təxminən 30 il davam etdi və bu illər ərzində çoxsaylı nəticəsiz, sonsuz və mənasız danışıq raundları aparıldı. Həmin danışıqlara himayədarlıq edənlərin yalnız bir məqsədi var idi - torpaqlarımızı əbədi olaraq Ermənistanın işğalı altında saxlamaq. Sülhün təmin edilməsi və ərazilərimizin azad olunması mandatını daşıyanların məqsədi məhz bundan ibarət idi. Mən ATƏT-in Minsk qrupunun həmsədrlərini - BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü olan Fransanı, Rusiyanı və Amerika Birləşmiş Ştatlarını nəzərdə tuturam. Təsəvvür edin, bu ölkələr Ermənistanı Azərbaycan ərazilərini azad etməyə məcbur edə bilməzdilərmi? Əlbəttə ki, edə bilərdilər. Sadəcə bunu istəmirdilər. Onlar torpaqlarımızın Ermənistanın işğalı altında qalmasını istəyirdilər. Bu, onların birgə qərarı idi. Lakin biz bu planları dəyişdirdik.

Danışıqlar prosesinin ilkin mərhələsində böyük ümidlərimiz var idi. Mən 2003-cü ildən Prezident kimi fəaliyyət göstərirəm və 17 il ərzində, dediyim kimi, sonradan nəticəsiz olduğu aydın olan bu danışıqlarda iştirak etdim, sülh yolu ilə həll variantı tapmağa və böyük dövlətləri həqiqətin bizim tərəfimizdə olduğuna inandırmağa çalışdım. Biz deyirdik: "Haqq bizim tərəfimizdədir. Biz işğala məruz qalmışıq. Xəritəyə baxın, Ermənistan silahlı qüvvələrinin bizim ərazilərimizdə harada yerləşdiyini görün". Bunun müqabilində isə yalnız bir cavab alırdıq: "Gedin razılaşın". Sonra deyirdilər ki, bu münaqişənin hərbi həlli yoxdur. Daha sonra bildirirdilər ki, siz müharibəyə başlaya bilməzsiniz. Həmçinin xəbərdarlıq edirdilər ki, əgər müharibəyə başlasanız, sanksiyalarla üzləşəcəksiniz. Bu cür çoxsaylı başqa mesajlar verilirdi, sadəcə vaxtınızı çox almaq istəmirəm.

Beləliklə, dünya siyasətində qərar verən qüvvələrin torpaqlarımızın qeyri-qanuni şəkildə əbədi işğal altında qalmasına qərar verdiyini anladığımız zaman, biz öz qərarımızı verdik və bütün planları dəyişdirdik. 2020-ci ildə torpaqlarımızın azad olunması uğrunda müharibə 44 gün davam etdi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Biz işğal altında olan ərazilərimizin böyük hissəsini azad etdik, lakin hamısını yox. Daha sonra - 2023-cü ildə bu məsələyə tam və qəti nöqtə qoyduq. Bu gün Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tam şəkildə bərpa olunub və bu, bütün dünya tərəfindən qəbul edilib. Bundan sonra isə biz Ermənistana sülh təklif etdik. İşğaldan və dağıntılardan əziyyət çəkmiş qalib ölkə, qalib xalq olaraq sülh təşəbbüsü ilə çıxış edən tərəf məhz biz olduq. Bu gün isə artıq sülh reallığa çevrilib.

Artıq təxminən bir ilə yaxındır ki, biz sülh şəraitində yaşayırıq və bunun müsbət nəticələrini görürük. Ermənistanın işğalçı qüvvələrinin xalqımıza və şəhərlərimizə qarşı törətdiklərini heç vaxt unutmayacağıq. Onların 65 məscidi dağıtmasını, xalqımızın dini hisslərini təhqir etmək məqsədilə məscidlərdə, o cümlədən donuz saxlamalarını heç vaxt unutmayacağıq. Biz Xocalı soyqırımını da heç vaxt unutmayacağıq. Lakin gələcəyə baxmağı bacarmalıyıq. Biz qisasımızı döyüş meydanında aldıq və bu, kifayətdir. Müharibə dayanmalı idi və onu dayandıran da biz olduq. Güclü tərəf olaraq biz müharibəyə son qoyduq və sülh təklif etdik. Beləliklə, bu gün sülh artıq reallıqdır.

Ərazilərimizi azad etdikdən dərhal sonra genişmiqyaslı bərpa və yenidənqurma proqramına başladıq. Bu gün artıq Qarabağda və Şərqi Zəngəzurda təxminən 90 min insan yaşayır, çalışır və təhsil alır. Müxtəlif infrastruktur və yaşayış layihələrinin həyata keçirilməsi üçün dövlət büdcəsindən 15 milyard ABŞ dollarından artıq vəsait ayrılıb. Bütün maliyyə mənbələri nəzərə alındıqda isə azad edilmiş ərazilərə yönəldilən ümumi investisiyaların həcmi 17 milyard ABŞ dollarına yaxındır.

Hazırda genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Bunlara su anbarları, su kanalları, elektrik stansiyaları, artıq istifadəyə verilmiş beynəlxalq hava limanları, tunellər və körpülər daxildir. Azad edilmiş ərazilərin yenidən qurulması istiqamətində bizim səylərimizi dəstəklədiyinə görə İslam İnkişaf Bankı Qrupuna minnətdarıq. Bu gün bu məsələ hökumətimizin əsas prioritetlərindən biridir, lakin yeganə prioritet deyil. Əminəm ki, Qrup çərçivəsində aparılan müzakirələr zamanı bu mövzular geniş şəkildə nəzərdən keçirilib.

Mən yalnız gələcəyə dair bir neçə prioritet istiqaməti xüsusi vurğulamaq istəyirəm. Onlardan biri, qeyd etdiyim kimi, bağlantıdır. Biz Azərbaycanı daha da güclü nəqliyyat-logistika mərkəzinə çevirməyə davam etməliyik. Məqsədimiz Azərbaycan ərazisindən daşınan yüklərin həcmini iki dəfə artırmaqdır. Hazırda bu göstərici təxminən 14-15 milyon ton təşkil edir və biz bu rəqəmi ikiqat artırmağı hədəfləyirik. Əlbəttə, bunun hamısı yalnız bizdən asılı deyil. Bu, həm geosiyasi vəziyyətdən, həm də regiondakı ümumi şəraitdən asılı olacaq. Lakin bunlar bizim planlarımızdır.

Ərzaq təhlükəsizliyi ilə bağlı planlarımız da tam aydındır. Kənd təsərrüfatının inkişafına dair bu yaxınlarda qəbul edilmiş dövlət proqramı çərçivəsində əsas istehlak məhsulları üzrə maksimum özünütəminetmə səviyyəsinə nail olmağı planlaşdırırıq. Suvarma sahəsinə gəldikdə, İslam İnkişaf Bankının su kanalları və su anbarlarının tikintisinə verdiyi dəstək sayəsində fermerlər su ehtiyatlarına daha geniş çıxış əldə edəcəklər və məhsuldarlıq əhəmiyyətli dərəcədə artacaq.

Bərpaolunan enerji də böyük potensiala malik sahələrdən biridir. Artıq beynəlxalq və yerli şirkətlərlə imzalanmış müqavilələr 2032-ci ilədək ölkəmizə 8 gigavat həcmində Günəş və külək enerjisi istehsal gücü qazandıracaq. Bu, minimum göstəricidir. Söhbət niyyət protokollarından deyil, artıq imzalanmış konkret müqavilələrdən gedir və bu rəqəm gələcəkdə daha da artacaq. Hazırda biz ötürücü xətlərin yaradılması və enerji ixracı istiqamətində çalışırıq, çünki qeyd etdiyim kimi, bu qədər enerjiyə ehtiyacımız olmayacaq. Buna görə də enerjiyə ehtiyacı olan bazarlara, ilk növbədə, Avropaya enerji ötürülməsini təmin edəcək infrastruktur üzərində işləyirik. Hamıya məlumdur ki, Avropanın uzun illər ərzində elektrik enerjisinə böyük ehtiyacı olacaq.

Bütün bunlar, həmçinin bir çox digər istiqamətlər strateji prioritetlərimiz sırasında yer alır. Əminəm ki, planlarımızın böyük hissəsi artıq auditoriyanın diqqətinə çatdırılıb. Vaxtınızı çox almaq istəmirəm. Bir daha Azərbaycanı ev sahibi ölkə kimi seçdiyinizə, bizimlə bir yerdə olduğunuza və göstərdiyiniz dəstəyə görə minnətdarlığımı bildirir, İllik Toplantıların uğurla keçməsini arzulayıram.

22_27 IYUl-QARA.qxd 6/18/2026 8:35 PM Page 7






## Qabiliyyət imtahanlarına elektron qeydiyyat başlayır

***2026/2027-ci tədris ili üçün ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları (XQTİ) üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən abituriyentlərin elektron qeydiyyatı başlanır.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib.

Təsviri sənət, teatr, xoreoqrafiya sənəti və musiqi sənəti istiqamətlərinin komissiyaları üzrə aparılan qeydiyyat prosesi iyunun 18-dən 29-dək davam edəcək.

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin XQTİ-ləri üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən abituriyentlər yalnız 1 istiqamət üzrə qeydiyyatdan keçə bilərlər.

Qeyd olunub ki, ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə qeydiyyatdan qəbul imtahanının I mərhələsində (cari ilin məzunları üçün buraxılış) topladıqları ümumi balı 50 (fənlər üzrə nisbi bal məhdudiyyəti tətbiq edilmir) və daha yüksək olan abituriyentlər keçə bilərlər. Abituriyentlərə "Qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni çap edə biləcəkləri tarixlər haqqında məlumat DİM-in internet səhifəsində veriləcək. "Qabiliyyət imtahanına buraxılış vərəqəsi"ndə qabiliyyət imtahanlarının tarixi, keçiriləcəyi ünvan və vaxt göstəriləcək.

Xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə məlumatlar 2026-ci ildə nəşr edilən xüsusi qabiliyyət imtahanlarının istiqamətləri üzrə "Abituriyent" jurnalının xüsusi buraxılışlarında dərc edilib. Burada ali təhsilin bakalavriat və magistratura, tam (11 illik) və ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə məlumatlar, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər və digər faydalı məlumatlar əksini tapıb.

Abituriyentlər müvafiq keçidə daxil olub qeydiyyatdan keçə bilərlər.

## Yaralı azərbaycanlıların vəziyyəti açıqlandı - Rəsmi

***İyunun 5-də Azov dənizində dron hücumları nəticəsində zərər görən gəmilərdə yaralanan Azərbaycan vətəndaşlarının səhhəti ilə bağlı son vəziyyət məlum olub.***

"Unikal"-ın sorğusuna cavab olaraq Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, hadisə zamanı yaralanan vətəndaşlarımız artıq sağalıblar.

"Yaralılar sağalıb və evə buraxılıblar", - deyə XİN rəsmisi qeyd edib.

Xatırladaq ki, iyunun 5-də Azov dənizində dron hücumları nəticəsində "Natra" və "Zirkon" yük gəmilərinin heyət üzvləri olan 25 Azərbaycan vətəndaşından 4 nəfər həlak olmuş, 4 nəfər isə - Rəşad Mədətxanov, Samid İbadzadə, Emin Valehov və Namiq Cəfərli yaralanmışdı.

# "Gənclərin mütləq əksəriyyəti sosial şəbəkələrin əsirinə çevrilib"

## "Məktəblərdə smartfonlardan istifadəyə məhdudiyyət qoyulmalıdır" - Ceyhun Məmmədov

***Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, məktəbli formasına dair vahid yanaşmanın təmin edilməsindən, müəllimlər üçün geyim tələblərinə dair vahid yanaşmanın tətbiq olunmasından, məktəblərdə şagirdlərin "TikTok"a çıxışının bloklanmasından və təhsil müəssisələrində şagirdlərin telefonlardan istifadəsinin necə məhdudlaşdırıla biləcəyindən danışıb.***

***- Ceyhun müəllim, "Ümumi təhsil haqqında" qanuna dəyişikliklər təklif olunur. Təhsilalanlarla bağlı qanunvericilikdə nəzərdə tutulan dəyişiklik dövlət ümumi təhsil müəssisələrində artıq müəyyən edilmiş geyim tələblərinə riayət olunmasının hüquqi müstəvidə təsbit edilməsini nəzərdə tutur. Məktəblərdə şagirdlərin vahid forma geyinməsinin əhəmiyyətini necə qiymətləndirirsiz və bunun hüquqi müstəvidə təsbit edilməsi nəyi dəyişəcək?***

- Burada söhbət ümumi təhsil müəssisələrində təhsilverənlərin geyimindən gedir. Təəssüf, bəzən elə təqdim olunur ki, sanki burada məqsəd başqadır. Bəzən müxtəlif müzakirələr aparılır ki, söhbət şagirdlərin geyiminin dəyişdirilməsindən gedir. Burada şagirdlərin geyiminin dəyişdirilməsindən söhbət getmir. Sənəddə təhsilverənlərin geyimi müzakirə olunur. Dəyişiklik təhsil müəssisələrində vahid yanaşmanın tətbiqi, nizamlı təhsil mühitinin formalaşdırılması, peşəkar davranış mədəniyyətinin gücləndirilməsi və tədris prosesinin keyfiyyətinin artırılması məqsədi daşıyır. Əslində, bu barədə müzakirələr cəmiyyətdə xeyli vaxtdır gedirdi. Bu baxımdan sənəd xüsusi əhəmiyyət daşıyır.

***- Məlum olduğu kimi, qanuna təklif edilən dəyişikliklə təhsilverənlər üçün geyimlə bağlı hüquqi əsas yaradılır. Yeni müddəaya əsasən, dövlət ümumi təhsil müəssisələrində təhsilverənlər üçün geyimlə bağlı tələblərin müəyyən edilməsi təsbit olunur. Müəllimlər vahid geyim formasına keçməsini necə qiymətləndirirsiz?***

- Qanuna edilən əlavə və dəyişiklikdən də göründüyü kimi, burada əsas məqsəd dövlət ümumi təhsil müəssisələrində təhsilverənlər üçün geyim tələblərinə dair vahid yanaşmanın təmin edilməsidir. Eyni zamanda, dövlət ümumi təhsil müəssisələrində təhsil mühitinin təşkilati əsaslarının daha da gücləndirilməsi, geyimlə bağlı vahid yanaşmanın hüquqi çərçivəsinin dəqiqləşdirilməsi və məktəbdaxili nizam-intizamın dəstəklənməsidir. Həmçinin həm təhsilalanların, həm də təhsilverənlərin ümumi zahiri görünüşündə təhsil mühitinə uyğun olmayan və diqqəti tədris prosesindən yayındıra biləcək müxtəlif rəmz və atributların, eləcə də qeyri-rəsmi və ictimai etik normalara uyğun hesab edilməyən geyim elementlərinin minimuma endirilməsidir. Hamımıza məlum olduğu kimi, məktəblərdə vahid geyimin tətbiqi beynəlxalq təcrübədə dünyanın bir çox ölkələrində geniş tətbiq olunur. Dünyanın hər yerində vahid geyim forması təhsil mühitində təşkilati nizamın və peşəkar və işgüzar mühitin formalaşdırılmasının mühüm elementlərindən biri hesab olunur. Məsələn, Malaziyada dövlət məktəblərində çalışan müəllimlər üçün rəsmi geyim kodları mövcuddur. Sinqapur və Koreyada təhsilverənlərin geyim qaydaları olduqca sərtdir. Çin, Yaponiya, Birləşmiş Ərəb Əmirliyi və Qətərdə məktəblərdə müəllimlərdən müəyyən geyim normalarına əməl etmələri tələb olunur. Heç şübhəsiz ki, məktəblər təkcə bilik ötürən məkan deyil, həm də cəmiyyətin gələcəyini formalaşdıran, uşaqları və gəncləri birgə yaşamağa hazırlayan mühüm sosial institutdur. Beləliklə, vahid məktəbli forması və geyim tələbləri sosial-iqtisadi fərqlərin qarşısını almağa, həmçinin ayrı-seçkilik risklərini azaltmağa imkan yaradacaq. Həmçinin vahid yanaşmaya uyğun geyim məktəb daxilində korporativ idarəetmə mədəniyyətinin formalaşmasına və güclənməsinə xidmət edəcək. Heç şübhəsiz ki, müəllimlərin işgüzar üslubda görünməsi onların özlərinin və məktəbin ictimai nüfuzuna müsbət təsir göstərəcək. Birmənalı olaraq müəllimin geyimi onun dinamik işinə maneə yaratmamalı, şagirdlərin diqqətini yayındırmamalı, eyni zamanda şagirdlərdə geyimə, üsluba, geyimin müxtəlif situasiyalara uyğun seçilməsinə düzgün münasibət formalaşdırmalıdır. Heç şübhəsiz ki, sadə və səliqəli işgüzar üslub şagirdlərin diqqətinin dərs prosesindən yayınmasının qarşısını almağa kömək edəcək. Yəqin ki, hər birimiz razılaşarıq ki, geyim müəllimin ünsiyyətinə və dərsin idarə olunmasına mane olmamalıdır. Bu da danılmaz faktdır ki, geyimdə peşəkarlıq və standartlara uyğunluq müəllimin pedaqoji nüfuzunun qorunmasına xidmət edir. Müəllimin görünüşü isə şagirdlərdə məktəb mühitinə, davranış mədəniyyətinə və peşəkar ünsiyyət normalarına münasibətin formalaşmasına təsir edən amillərdən biridir.



Vahid işgüzar üslub həm şagirdlərin, həm də müəllimlərin təhsil prosesinə daha ciddi yanaşmasını təşviq edir. Bu, məktəbdaxili münasibətlərə və müəllimlərin valideynlər və şagirdlər tərəfindən qəbul edilməsinə müsbət təsir göstərir. Geyimin qiymətinə, dəbə uyğunluğuna, dəyişmə tezliyinə olan əlavə marağı azaldır. Onu da xüsusi vurğulamaq lazımdır ki, təhsil mühitində tətbiq olunan qaydaların səmərəli həyata keçirilməsi məktəb və ailə arasında əməkdaşlığın gücləndirilməsini tələb edir. Valideynlərin bu prosesə dəstəyi uşaqların məktəb mühitinə uğurlu adaptasiyasına töhfə verir. Valideynlər məktəbdə formalaşdırılan nizam-intizam, məsuliyyət və davranış mədəniyyəti ilə bağlı yanaşmaların dəstəklənməsi uşaqların şəxsiyyət kimi inkişafında mühüm rol oynayırlar. Bu məsələdə onların da üzərinə ciddi vəzifələr düşür. Heç şübhəsiz ki, birgə əməkdaşlıq və vahid mövqe nümayiş etdirmədən ciddi nəticəyə nail olmaq qeyri-mümkündür. Bu mənada uşaqların təhsil mühitində tətbiq olunan qaydalara hörmətlə yanaşması ilk növbədə ailədə formalaşan dəyərlər və davranış nümunələri ilə sıx bağlıdır. Məktəb və ailənin eyni istiqamətdə fəaliyyət göstərməsi təlim-tərbiyə prosesinin effektivliyini daha da artıracaq.

***- Bu ayın əvvəlində parlamentdə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı elm və təhsil nazirinin müavini Firudin Qurbanov bildirdi ki, məktəblərdə uşaqların "TikTok"a çıxışı bloklanıb. Ümumiyyətlə, məktəblərdə uşaqların internetə çıxışına filter tətbiq edilir, 200-dən çox təhlükəli mövzularda videoya məhdudiyyətlər qoyulub. Bir çox hallarda sosial şəbəkələrdən istifadənin məktəb yaşlı uşaqların psixi sağlamlığı üçün mənfi nəticələrə səbəb olur. Bu istiqamətdə hansı digər addımlar atılmalıdır?***

- Məktəblərdə bu istiqamətdə işlər gedir. Hesab edirəm ki, məktəblərdə ağıllı telefondan (smartfon) istifadə məsələsini düşünməliyik və bununla bağlı müəyyən məhdudiyyətlərin tətbiq olunması məsələsi gündəmdə olmalıdır. Bu istiqamətdə müəyyən addımların atılmasına yaxşı olardı. Təəssüf ki, gənclərin mütləq əksəriyyəti sosial şəbəkələrin əsirinə çevriliblər. Bu gün ciddi formada sosial şəbəkənin təsiri altındadırlar. Bu məsələ bizi ciddi formada narahat etməlidir.

***- Məlumdur ki, istər ibtidai, istərsə də yuxarı siniflərdə təhsil alan uşaqların böyük əksəriyyəti smartfonlardan istifadə edirlər. Bəzi valideynlər övladlarından istədikləri vaxt xəbər tutmaq üçün onların məktəbə telefon aparmalı olduğunu düşünürlər. Amma şagirdlərin bəziləri dərsə qulaq asmaq əvəzinə telefonda müxtəlif oyunlar oynayır, sosial şəbəkələrdən istifadə edirlər. Sizcə, təhsil müəssisələrində telefonlardan istifadəni məhdudlaşdırmaq olar?***

- Valideynlər bəzən düşünürlər ki, onların övladları məktəbə telefon aparmalıdırlar. Dünyada bu məsələ müzakirə olunur ki, məktəblərdə şagirdlərin telefondan istifadə etməsi ciddi problemlər və çətinliklər yaratmaqdadır. Bu məsələnin nəzərə alınmasına ehtiyac var. Hesab edirəm ki, məktəblərdə ağıllı telefonlardan istifadə məsələsinə baxılmalı və buna müəyyən məhdudiyyətlər qoyulmalıdır. Bu həm şagirdlər, həm də təhsilverənlər üçün tətbiq olunmalıdır. Bu istiqamətdə də müəyyən addımların atılması vacibdir və bu barədə düşünməliyik.

***Anar Kəlbiyev***

# Dərman monopolistlərinin ağlasığmaz oyunları

## Qiymətlər həddindən artıq yüksəkdir, keyfiyyət isə şübhə altındadır, üstəlik, depolar həkimləri boğaza yığıb - Sensasiyalı faktlar!

***2026-cı ilin may ayında Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) tərəfindən ümumilikdə 56 aptekdə yoxlama aparılıb.***

Monitorinqlərdən biri Bakı şəhərində, 55-i isə respublikanın digər şəhər və rayonlarında yerləşən apteklərdə həyata keçirilib. Yoxlamaların 55-i planlı, biri isə plandankənar olub. Nəticədə 18 aptekdə müxtəlif nöqsanlar aşkar edilib.

"Bizim.Media"nın verdiyi məlumata görə, aşkarlanmış pozuntularla bağlı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 452.1 və 452.3-cü maddələri üzrə müvafiq inzibati protokollar tərtib olunub.



Xatırladaq ki, Dövlət Gömrük Komitəsi idxal edilən qanunsuz dərman preparatları barədə də tez-tez məlumat yayır. Bu da o deməkdir ki, bəzi apteklərdə insanlara aşağı keyfiyyətdə, bəzi hallarda isə "anoloji" dərmanlar təklif edilir. Bu isə ciddi narahatlıq doğurur.

Mövzu ilə bağlı açıqlamasında "Azad İstehlakçılar" İctimai Birliyinin sədri Eyyub Hüseynov deyib ki, ölkəmizdə keyfiyyətli dərman problemi var: "Bəzi şirkətlər ölkəyə müəyyən dərmanlar gətirir. İnsanlar bir müddət həmin dərmanlarla müalicə olunurlar. Və qəfildən həmin dərmanların idxalı dayandırılır. Əvəzində bazara "anoloji" dərmanlar çıxarılır. Bu dərmanlarsa çox zaman əvvəlki dərmanlar kimi keyfiyyətli və effektiv olmur.

Təsadüfi deyil ki, dərmanların keyfiyyətsizliyi barədə təkcə sadə vətəndaşlar deyil, həkimlər də danışır. Çünki dərmanların yan təsirləri öyrənilmir. Əslində istehsalçı şirkətlər ölkəmizə gəlib dərmanların yan təsirlərinin olub-olmamasıyla bağlı iş aparmalıdırlar. Amma bu vaxtadək belə bir hadisəylə rastlaşmamışıq.

Söhbət dərmanın keyfiyyətsiz olmasından getmir. Söhbət dərmanların bizlərə təsirindən gedir. Məsələn, ixtiyari dərman afrikalıya, amerikalıya müsbət, bizə isə mənfi təsir edə bilər, yaxud da əksinə. Yeni dərmanların yan təsirlərinin öyrənilməsi vacibdir.

Tarif Şurası 3 mindən çox dərmanın qiymətini tənzimləyib. Amma bizdə bəzi dərmanlar qonşu dövlətlərdən çox bahadır. Məsələn, "Qalvusmet" Azərbaycanda 75 manata, Türkiyədə 15 manata, Filippində isə 38 manata satılır. Əksər dərmanların qiyməti qonşu və uzaq ölkələrdəki qiymətlərlə müqayisədə çox bahadır".

Ekspert qeyd edib ki, ölkəmizdə apteklər digər ölkələrlə müqayisədə həddindən artıq çoxdur: "Bununla belə hansı aptekə getsən, növbələri görəcəksən. Bu qədər tələbat, xəstəliklər nədən törənir? Öyrənilməlidir. Bilinməlidir ki, bu havadandır, qidadandır, yoxsa dərmanların təsirsizliyindən... Problem ondadır ki, bəzi həkimlər dərman depolarıyla separat danışığa gedir. Dünən bir həkim mənə danışır ki, "dərman depolarını qapıdan qovuruq, bacadan girirlər. Bizə hər yazılan dərman üçün 50 faiz qazanc vəd edirlər". Bu isə qanun pozuntusu olmaqla, hər birimizin sağlamlığına ciddi təhdiddir".

Vurğulayaq ki, "Unikal" olaraq ölkənin dərman bazarındakı xaotik durumla bağlı bir neçə dəfə bəhs etmişik; lakin görünən odur ki, bu mövzu mediada hələ uzun müddət aktuallığını qoruyub saxlayacaq. Problemin əsas səbəblərindən biri isə bəzi sahələrdə olduğu kimi, az qala tamamən idxal üzərində qurulmuş yerli dərman bazarında da inhisarçı maraqların önə çıxmasıdır. Vaxtilə iqtisadçı Xalid Kərimlinin dediyi kimi: "Dərman gətirmək o qədər də asan məsələ deyil. Düzdür, Səhiyyə Nazirliyi çox rahat şəkildə deyir ki, dərmanları özəl şirkətlər gətirir. Amma dərman kartof , ya da qarpız, avtomobil deyil ki, özəl sektor bunu rahat şəkildə götürüb gəlsin. Bunun üçün dərmanların təsdiq edilməsi lazımdır. Bu işlə məşğul olan şirkətlərin lisenziyalaşdırılmış olması lazımdır. Dərmanların hər birinin tərkibi, uyğunluğunu Səhiyyə Nazirliyinin müvafiq qurumları təsdiq etməlidir. Avtomatik olaraq Səhiyyə Nazirliyinin burada böyük səlahiyyətləri ortaya çıxır. Hansısa qruplar isə dərmanlar üzrə bazarı öz aralarında bölüşdürür. Monopoliya olma ehtimalı bu sahədə böyükdür. Burada da məmurların rolu daha artıqdır".

Bəli, reallıq ondan ibarətdir ki, məhz monopolist maraqlar ucbatından ölkədə farmasiya (əczaçılıq) faktiki olaraq dərman ticarətinə çevrilib. Vaxtilə ekspertlərdən biri - İlqar Altay yaranmış durumu konkret şəkildə ifadə edərkən ilginc bir fikir işlətmişdi: "Ölkəyə yeni gətirilən dərman preparatlarının qiyməti barədə əhalidə məlumat olmur. Maya dəyəri 3 manata ölkəyə gətirilən dərmanı hətta onqat artığına, yəni 30 manata da satırlar. Yaxud bir aptekdə 12 manata rast gəlinən eyni dərmanı 200 metr aralıdakı aptekdə 2 manata almaq olur. Yəni, nəzarətsiz, sistemsiz, başıpozuq dərman ticarəti narkotika alveri qədər qanunsuz gəlir gətirir və bir o qədər də sağlamlığa ziyan vurur".

Aradan illər keçir, lakin təəssüflər olsun ki, dərman bazarında yaranmış bu xaotik, insanlarda haqlı narahatlıq və narazılıq yaradan durum dəyişmir. Hətta Tarif Şurasının minlərlə dərmanın qiymətini tənzimləməsinə baxmayaraq, nə qiymətlərdə bahalaşma, eyni dərmanın fərqli apteklərdə fərqli qiymətə satılması kimi hallar, nə də dərmanların keyfiyyətinə dair çoxsaylı şübhələr aradan qalxır!

Və belə görünür ki, bu sahədə inhisarçı maraqlar qaldığı müddətcə hər hansı müsbət irəliləyişdən danışmaq da mümkün olmayacaq.

***Sənan Mirzə***



# Əli Əhmədov Rusiya ilə əməkdaşlıqdan danışdı

***"Təhsil, elm və səhiyyə sahələrində Azərbaycan-Rusiya əməkdaşlığı məzmunluğu və dinamik inkişafı ilə fərqlənir. Hazırkı görüş tibb kadrlarının hazırlanması, səhiyyə, elm və təhsil sahələrində əməkdaşlığa yönəlib".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov Azərbaycan Respublikası Milli Məclisi ilə Rusiya Federasiyası Federal Məclisinin parlamentlərarası əməkdaşlıq Komissiyasının 24-cü iclasında deyib.

"Əməkdaşlığımıza birgə təhsil proqramlarının həyata keçirilməsi, iki ölkənin ali təhsil müəssisələri arasında tərəfdaşlığın inkişafı, ikili diplom proqramları və tələbələr üçün akademik mobilliyin genişləndirilməsi daxildir. Bu sahələr xalqlarımız arasında humanitar əlaqələrin möhkəmləndirilməsi üçün çox vacibdir. Bu sahələrdə əməkdaşlığın ardıcıl inkişafı Azərbaycan və Rusiyanın ortaq maraqlarına uyğundur. Elm-təhsil mübadilələrinin və səhiyyə sahəsində qarşılıqlı fəaliyyətin genişləndirilməsi peşəkar birliklər arasında etimadı möhkəmləndirir, tərəfdaşlıq münasibətlərinin gələcəkdə də inkişafı üçün möhkəm zəmin yaradır", -deyə Ə.Əhmədov bildirib.

O qeyd edib ki, parlament demokratiyasının inkişafı məsələləri Azərbaycan ilə Rusiya arasında əməkdaşlıqda xüsusi yerə malikdir. Onun sözlərinə görə, gündəlikdəki əsas məsələlərdən biri iki ölkənin qanunvericilik orqanları arasında əməkdaşlıq perspektivlərinin müzakirəsidir.

"Parlamentlərarası əlaqələrin möhkəmləndirilməsi və təcrübə mübadiləsi parlament fəaliyyətinin səmərəliliyinə töhfə verir və ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafı üçün əlavə imkanlar yaradır". - deyə MM sədrinin birinci müavini vurğulayıb.

# Agentliyin departament müdiri işdən çıxdı - Yeni təyinat

***Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin departament müdiri işdən çıxıb.***



"Unikal"ın əldə etdiyi məlumata görə, Tibbi-sosial ekspertiza xidmətinin təşkili departamentinin müdiri Niftiyev Yalçın Sakit oğlu vəzifəsindən ayrılıb. O, 2024-cü ildən bu vəzifədə çalışırdı.

Agentliyin Hüquq departamentində isə yeni təyinat olub. Əliyev Əsəd Nazim oğlu adıçəkilən departamentin Məhkəmə mübahisələri və qərarların icrasına nəzarət şöbəsinin müdiri təyin edilib.

***Anar Kəlbiyev***



## Anar Bayramov bu xanımı özünə müşavir təyin etdi

***Rəna Məmmədova TƏBİB-in İcraçı direktoruna müşavir təyin edilib.***

"Unikal" xəbər verir ki, Rəna Məmmədova hazırkı təyinatınadək "Paşa Sığorta" ASC-nin Baş tibb inzibatçısı olaraq fəaliyyət göstərib.

R.Məmmədova Azərbaycan Tibb Universitetinin Müalicə işi fakültəsində həkim-onkoloq ixtisası üzrə təhsilini başa vurub. Daha sonra Azərbaycan Dövlət İqtisad Universitetində beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə ikinci təhsil alıb.

Əmək fəaliyyətinə 2001-ci ildə Mərkəzi Neftçilər Xəstəxanasında həkim-cərrah olaraq başlayan R.Məmmədova sonrakı illərdə həmin tibb müəssisəsində tibbi sığorta üzrə həkim-koordinator vəzifəsində çalışıb.

2010-cu ildən etibarən "Paşa Sığorta" ASC-də Tibbi və səfər sığortası departamentinin rəhbəri, daha sonra isə Tibbi sığorta blokunun rəhbəri vəzifələrində çalışıb. Rəhbərlik etdiyi dövrdə tibbi sığorta, xidmətlərin təşkili, səhiyyə müəssisələri ilə əməkdaşlıq mexanizmlərinin inkişafı, tibbi xidmətlərin keyfiyyətinin artırılması və pasiyentyönümlü yanaşmaların tətbiqi istiqamətində fəaliyyət göstərib.

## "Arzum" ləqəbli tiktokerin məhkəmə zalında həbsi tələb edildi




***Yol qəzasında bir nəfərin ölümü və digərinin xəsarət almasında təqsirləndirilən "Arzum 999" ləqəbli tiktoker İlduzə Hacıyevanın cinayət işi üzrə növbəti məhkəməsi davam etdirilib.***

"Unikal"ın məlumatına görə, Xəzər Rayon Məhkəməsində keçirilən prosesdə tiktokerin vəkili Hikmət Əliyev hakimə etiraz edib.

Məhkəmə müşavirəyə gedib qayıtdıqdan sonra qərarı elan edib. Belə ki, Hikmət Əliyevin etirazı qəbil edilməyib.

Vəkil Hikmət Əliyev artıq bundan sonra vəsatətlər verib.

O, əvvəlcə istintaq ekspremetinin keçirilməsi ilə bağlı vəsatət verib. Vəkil bildirib ki, avtomobillər arasında hündürlük baxımından fərqlilik var. Belə ki, qarşı tərəfin avtomobilində ağ rəng Arzumun avtomobilinin rəng ləkəsi deyil.

Daha sonra məhkəmə istintaqının yekunlaşdırılması qərara alınıb.

Lakin təqsirləndirilən şəxsin vəkilləri buna etiraz edərək əlavə şahidlərinin olduğunu məhkəmənin vəsatət veriblər.

Vəkillərin bu vəsatətləri də təmin edilməyib və məhkəmə istintaqı yekunlaşıb.

Dövlət ittihamçısı Nərmin Tahirzadə ittiham nitqi ilə çıxış edərək məhkəməyə tiktoker Arzumun 3 il sürücülük hüququndan məhrum edilməsi və məhkəmə zalından həbs edilməklə 5 il 9 ay müddətinə azadlıqdan məhrum edilməsini təklif edib.

Təqsirləndirilən şəxsin vəkilləri müdafiə çıxışları üçün məhkəmədən vaxt istəyiblər.

Məhkəmənin yekun iclası iyunun 25-nə təyin edilib.

Qeyd edək ki, hadisə 2025-ci ilin iyununda paytaxtın Xəzər rayonu, Mərdəkan qəsəbəsində qeydə alınıb. Qəza nəticəsində qarşı tərəfdən 1 nəfər ölüb, digəri isə ağır xəsarət alıb.

Xatırladaq ki, istintaq zamanı bloger Arzum barəsində həbslə bağlı olmayan qətimkan tədbiri seçilib.

***Orxan Rasifoğlu***

# Ramiz Mehdiyevin ailə bankı rəsmən əldən çıxdı

### "Bank BTB"nin adı dəyişib "T-Kredit" oldu, sırada "boz kardinal"ın özəl klinikası var - Bundan başqa, bir şirkət də "növbəsini" gözləyir

***"Bank BTB" ASC öz təşkilati-hüquqi formasını və adını dəyişdirərək "T-Kredit" MMC Bank Olmayan Kredit Təşkilatına (BOKT) çevrildiyini elan edib.***

Qeyd edək ki, Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin 5 mart 2026-cı il tarixli qərarına əsasən, mövcud qanunvericiliyə uyğun şəkildə "Bank BTB" ASC-nin müraciəti nəzərə alınaraq onun bank olmayan kredit təşkilatı formasında yenidən təşkil edilməsinə əvvəlcədən razılıq verilmişdi.

Bankın aktivləri və öhdəlikləri "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə (ABB) ötürülüb.



Xatırladaq ki, "Bank BTB" 2010-cu ildə təsis edilib. Bankın nizamnamə kapitalı 71,45 milyon manat təşkil edir. Bankın səhmlərinin 76,74 %-i Nigar Mehdiyevaya, 17,68 %-i Müşahidə Şurasının sədri Rza Sadiqə, 5,58 %-i isə Tükəzban Mahmudovaya aiddir.

Onu da vurğulayaq ki, bu bankın PA-nın sabiq rəhbəri, hazırda hakimiyyəti zorla ələ keçirməyə görə ittiham olunan Ramiz Mehdiyev və ailə üzvlərinə məxsusluğu haqda mətbuatda dəfələrlə yazılıb. Bu, səbəbsiz deyil: səhmlərin üçdə ikisindən çoxuna sahib olmuş N.Mehdiyeva "boz kardinal"ın gəlinidir. O, ötən ilin oktyabrınadək Azərbaycan Tibb Universitetinin (ATU) Onkologiya Klinikasında müalicə işləri üzrə direktor müavini və II cərrahiyyə şöbəsinin müdiri-bölmə rəhbəri vəzifələrini icra edirdi. Lakin qayınatası dövlətə xəyanət və digər cinayətlərdə ittiham olunaraq cinayət məsuliyyətinə cəlb edildikdən sonra N.Mehdiyeva həmin vəzifələrdən uzaqlaşdırılıb.

Onu da deyək ki, "Bank BTB"nin ardından Mehdiyevlərin ailə biznesinin daha bir önəmli halqası olan "German Hospital"ın da əl dəyişdirəcəyinə dair bir müddətdir xəbərlər yayılır. Hətta bu ilin fevralında həmin hospitalın bağlanacağı ilə bağlı KİV-də növbəti dəfə məlumatlar yer almışdı. İddialara görə, son aylarda (daha dəqiq desək, "boz kardinal" cinayət məsuliyyətinə cəlb olunub barəsində məhkəmədən ev dustaqlığı qərarı çıxandan sonra!) adıçəkilən tibb müəssisəsinin fəaliyyəti zəifləyib. Qeyd olunurdu ki, hətta xəstəxana əməkdaşlarına martın 1-dən etibarən klinikanın bağlanacağı deyilib. Həmin vaxt klinkadan verilən açıqlamada yayılan məlumatların həqiqət olmadığı bildirilmişdi. Qeyd olunmuşdu ki, tibb müəssisəsi fəaliyyətini davam etdirir və əməkdaşlar iş başındadır.

İddialar bu yöndədir ki, "German Hospital"ın bağlanmasa da, onun da əl dəyişdirməsi, yəni Mehdiyevlərin nəzarətindən çıxarılması kifayət qədər realdır.

Yada salaq ki, ötən il də adıçəkilən klinikada bəzi həkim və əməkdaşların işdən çıxarılması, eləcə də bir neçə şöbənin fəaliyyətini dayandırması ilə bağlı xəbərlər yayılmışdı. Bundan əlavə, tibb müəssisəsinin adı istintaq materiallarında da hallanıb.

Bir sözlə, aylardır "German Hospital"a dair bənzər informasiyaların ortaya atılması təsadüfi görünmür və onun da "Bank BTB" kimi fərqli tale yaşamağa başlaması kifayət qədər realdır.

Qeyd edək ki, bu klinikanın Ramiz Mehdiyevin kürəkəni, sabiq deputat İlham Əliyev tərəfindən idarə edildiyi deyilir. O,uzun illər səhiyyə və tikinti biznesi ilə məşğul olub. Mehdiyevin kürəkəninin adı bir sıra kommersiya layihələrində, o cümlədən "German Hospital"ın təsis sənədlərində keçir.

Bu arada "boz kardinal"ın ailə biznesinin ən böyük qollarından biri hesab olunan "Şərq-Qərb" ASC-nin də Mehdiyevlərin nəzarətindən çıxarılacağı yönündə iddialar var. Şirkətin səhmlərinin əsas hissəsi (96%) fövqəladə hallar nazirinin sabiq müavini, Ramiz Mehdiyevin oğlu Teymur Mehdiyevə məxsusdur. Nəhəng nəşriyyat və poliqrafiya müəssisəsi olan bu şirkət milyonlarla manat gəlirə malikdir və dövlət tenderlərində aktiv iştirak edir.

T.Mehdiyev də atasının cinayət məsuliyyətinə cəlb olunmasından sonra vəzifəsini itirib.

Onu da deyək ki, R.Mehdiyev ətrafında baş verənlərin ardından "Şərq-Qərb" ASC-nin də gəlirləri kəskin azalıb. Şirkət 2025-ci ili 676 min manat xalis mənfəətlə başa vurub. Səhmdar cəmiyyətin maliyyə hesabatından belə məlum olur ki, bu, 2024-cü illə müqayisədə 20 % azdır.

Ötən il "Şərq-Qərb"in vergiyəqədərki mənfəəti 846 min manat (əvvəlki ilə nisbətən 19,9 % az), mənfəət vergisi ödəmələri isə 171 min manat (19 % az) təşkil edib.

Bu il yanvarın 1-nə "Şərq-Qərb"in aktivləri 10,01 milyon manat olub ki, bu da, illik müqayisədə 5,8 % çoxdur. Hesabat dövründə şirkətin öhdəlikləri 44 % azalaraq 164 min manata, balans kapitalı isə 7,4 % artaraq 9,846 milyon manata çatıb.

Beləliklə, Ramiz Mehdiyevin "qürubu" onun ailə biznesinin də sürətli süqutu ilə müşahidə edilir.

***Toğrul Əliyev***

22_27 IYUl-QARA.qxd 6/18/2026 8:35 PM Page 10



# İşbazlardan Bakıda qandonduran bahalaşma

## Paytaxtın bəzi ərazilərində torpağın bir sotu yarım milyon manatı da vurub keçdi - Şok rəqəmlər!

***Paytaxtda torpaq sahələrinin qiymətlərində artım müşahidə olunur. Hazırda Bakının müxtəlif ərazilərində çıxarışlı torpağın bir sotunun dəyəri təxminən 5 min manatdan başlayaraq 500 min manata qədər yüksəlir.***

Mütəxəssislərin sözlərinə görə, yay mövsümünün yaxınlaşması və fərdi ev tikintisinə marağın artması torpaq bazarında hərəkətliliyi artırıb. Alıcıların üstünlük verdiyi əsas seçim isə sənədləri qaydasında olan, çıxarışla təmin edilmiş torpaq sahələridir. Bunun əsas səbəbi gələcəkdə ev tikintisi zamanı kommunal xidmətlərin qoşulması ilə bağlı problemlərin qarşısını almaq istəyidir.

Əmlak bazarı üzrə ekspert Elnur Fərzəliyev "Xəzər TV"yə bildirib ki, mövsümi amillər də qiymətlərin formalaşmasına ciddi təsir göstərir. Onun fikrincə, hava şəraitinin tikinti işləri üçün daha əlverişli olduğu yaz və yay aylarında torpağa tələbat ənənəvi olaraq artır. Bu isə bəzi satıcıların, işbazların qiymətləri yüksəltməsinə və bazarda bahalaşmanın sürətlənməsinə səbəb olur.

Onu da deyək ki, şəhərin mərkəzi hissələrində torpaq qıtlığı səbəbindən qiymətlər ümumiyyətlə rekord həddə çatıb. Xüsusilə Əziz Əliyev küçəsi, Fəvvarələr Meydanı ətrafı və Nizami küçəsi kimi prestijli ərazilərdə hazırda satışda boş torpaq sahəsi tapmaq demək olar ki, mümkün deyil.

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sədri Vüqar Oruc bu günlərdə "Banker.az"a bildirmişdi ki, qeyd edilən ərazilərdə yalnız köhnə tikililərin sökülməsi nəticəsində yeni tikinti üçün torpaq sahəsi formalaşa bilər. Belə hallarda isə torpağın bir sotunun qiyməti təxminən 1,5-2 milyon manat arasında dəyişə bilər: "Paytaxtın digər nüfuzlu ərazilərində də torpaq qiymətləri kifayət qədər yüksəkdir. Belə ki, Neftçilər prospektində bir sot torpağın dəyəri orta hesabla 700-800 min manat, Məmməd Araz küçəsində təxminən 600 min manat, Həsən Əliyev küçəsində 550 min manat, Yusif Səfərov küçəsində 550-600 min manat təşkil edir.

Eyni zamanda Atatürk prospekti və Hüseyn Cavid prospekti ətrafında torpaq sahələrinin bir sotunun qiyməti 500-600 min manat arasında qiymətləndirilir. Ağ Şəhər layihəsi ərazisində isə yerindən asılı olaraq qiymətlər daha yüksək ola bilər. Burada torpağın bir sotunun dəyəri təxminən 500 min manatdan başlayaraq 600 min manatdan da yuxarı qalxa bilir".

Ekspert də vurğulayıb ki, şəhərin əsas biznes və yaşayış mərkəzlərində boş torpaq sahələrinin sayı olduqca məhduddur. Sitat: "Buna görə də həmin ərazilərdə hər hansı tikinti layihəsi üçün torpaq sahəsi satışa çıxarıldıqda qiymətlərin göstərilən rəqəmlərdən aşağı olması real görünmür. Torpağa olan yüksək tələbat və təklifin məhdudluğu bu ərazilərdə qiymətlərin uzun müddətdir yüksək səviyyədə qalmasına səbəb olur".

Qeyd edək ki, iki ay öncə Bakıətrafı ərazilərdə - Masazır, Xocəsən, Hökməli, Binəqədi və Sulutəpə kimi ərazilərdə də torpaq qiymətlərində ciddi artım müşahidə olunduğu barədə məlumat yayılmışdı. Həmin vaxt bildirilirdi ki, bu yüksəliş yalnız bazar tendensiyası deyil, həm də sosial və iqtisadi amillərlə bağlıdır. Əhali şəhərin mərkəzindən kənar ərazilərə yönəlir, böyük ailələr özləri üçün ev və torpaq əldə etmək istəyir, kompensasiyalar və söküntü işləri bu hərəkəti sürətləndirir.

İqtisadçı ekspert Natiq Cəfərli mövzu ilə bağlı "Crossmedia.az"a açıqlamasında demişdi ki, həmin bölgələrdə qiymətin bahalaşmasının səbəbi ondan ibarətdir ki, mərkəz və mərkəzə yaxın bölgələrdə qiymətlər daha kəskin və fantastik dərəcədə artıb: "Yəni, o qiymətlər əlçatan deyil. Ona görə də bahalaşsa da, şəhər kənarı ərazilərdə torpaq qiymətlərini bazara uyğun almaq mümkündür, yəni əhali ala bilir. Əsasən də köçürmə davam edir, şəhərin mərkəz və mərkəzə yaxın hissələrində söküntü işləri gedir, alınan kompensasiyalar var və həmin kompensasiyalar ödənilərkən vətəndaşlar şəhərin mərkəz və mərkəzə yaxın yerlərində ev və ya torpaq ala bilmədiklərinə görə şəhərdən kənar ərazilərdə torpaq alaraq böyük evlər, mənzillər tikməyə çalışırlar. Məsələn, yaşayış evləri tikməyə çalışırlar, çünki böyük ailədir, 6-7 nəfərlə birlikdə ümumilikdə 2-3 mənzil almaq lazımdır, amma pul çatmır".



Ekspert bu səbəbdən bəzilərinin torpaq sahəsi alıb 8-10 otaqlı böyük bir ev tikərək bütün ailəni həmin evə yerləşdirməyə çalışdıqlarını vurğulayıb.

Beləliklə, Bakı və onun ətrafında torpağın qiymətindəki anormal bahalaşmanı şərtləndirən müxtəlif amillər var. Müəyyən işbazlar isə bu amillərdən sui-istifadə edir, bəzi hallarda qiymətləri - yuxarıda təqdim etdiyimiz rəqəmlərdən də göründüyü kimi! - anormal həddədək yüksəldirlər. Bu tendensiyadan kimlərin itirib kimlərin qazandığı barədə nəticə hasil etməyi isə hörmətli oxucuların ixtiyarına buraxırıq.

***Sənan Mirzə***

# SOCAR-da yüksək vəzifəyə təyinat




***Xəbər verdiyimiz kimi, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Tibbi-sosial ekspertiza xidmətinin təşkili departamentinin müdiri Yalçın Niftiyev vəzifəsindən ayrılıb.***

"Unikal"ın əldə etdiyi məlumata görə, işdən çıxan departament müdiri Azərbaycan Respublikası Dövlət Neft Şirkətində (SOCAR) yüksək vəzifəyə təyin olunub.

Belə ki, Y.Niftiyev SOCAR vitse-prezidentinin müavini təyin edilib.

***Anar Kəlbiyev***

# BNF-də Azərbaycanın aviasiya sahələrindəki təcrübəsindən danışıldı



***Parisdə Beynəlxalq Nəqliyyat Forumunun (BNF) nəzdində fəaliyyət göstərən Korporativ Tərəfdaşlıq Şurasının təşkilatçılığı ilə nəqliyyat sistemlərinin dayanıqlılığının gücləndirilməsi, enerji təhlükəsizliyi, rəqəmsallaşma və hava yükdaşımalarının inkişaf perspektivlərinə həsr olunan seminarlar keçirilib.***

"Unikal" xəbər verir ki, avtomobil nəqliyyatına dair seminarda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin BNF-yə ezam olunmuş nümayəndəsi Əliş İsmayılov şəhər nəqliyyat sistemlərinin dayanıqlılığının artırılması istiqamətində Azərbaycanın təcrübəsini bölüşüb. Ölkəmizdə ictimai nəqliyyatın ekoloji cəhətdən daha dayanıqlı modelə keçirilməsi məqsədilə elektrik avtobuslarının alınması və onların yerli istehsalı istiqamətində görülən işlər barədə məlumat verilib. Bildirilib ki, enerji səmərəliliyinin artırılması məqsədilə yeni yanaşmalar tətbiq olunur.

Aviasiya sahəsinə həsr olunan isə "Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin Rəqəmsal Məhsullar Mərkəzinin rəhbəri Sadiq Mehrəliyev "Aviaşirkətlərin rəqəmsal transformasiyası" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda AZAL-da həyata keçirilən rəqəmsal transformasiya proqramı, uçuşların idarə olunması və sərnişin xidmət sistemlərinin modernləşdirilməsi və digər məlumatlar əksini tapıb.

Digər tədbirdə - hava yükdaşımalarına dair sessiyada AZAL-ın Yükdaşıma departamentinin rəhbəri Kamran Ramazanov "Hava limanı seçimi və mövcud infrastrukturun dayanıqlı hava yük əməliyyatlarına təsiri" mövzusunda təqdimatla çıxış edib. Yük operatorlarının hava limanı seçimində əsas meyarlar, o cümlədən bağlantılar, infrastruktur imkanları, gömrük prosedurlarının effektivliyi, rəqəmsal hazırlıq səviyyəsi barədə məlumat verilib.

Azərbaycanın təqdim etdiyi təcrübələr maraqla qarşılanıb və davamlı nəqliyyat sistemlərinin qurulması istiqamətində nümunəvi yanaşma kimi qiymətləndirilib.

# Yazıçılar Birliyinə qəbul dayandırıldı

***"Azərbaycan Yazıçılar Birliyi (AYB) 2027-ci ilə qədər quruma üzv olmaq üçün edilən müraciətlərə baxılmayacaq".***

"Unikal" xəbər verir ki, bu barədə "Qaynarinfo"ya AYB-nin əməkdaşı Xəyal Rza məlumat verib.

Onun sözlərinə görə, bu qərar birliyin qəbul komissiyası tərəfindən verilib.

"5 il ərzində üzvlük haqqını ödəməyən şair və yazıçıların Yazıçılar Birliyindən xaric edilməsi ilə bağlı qərardan sonra üzvlük haqlarının ödənilməsində canlanma müşahidə olunur. Üzvlük haqqı ildə bir dəfə ödənilir. Biz üzvlərdən gecikdirilmiş ödənişlərin edilməsini tələb edirdik", - deyə Xəyal Rza bildirib.

AYB təmsilçisi onu da əlavə edib ki, birliyə üzvlük üçün edilən müraciətlərə yalnız qurultaydan sonra baxılacaq:

"Qurultayın 2027-ci ilin payızında keçirilməsi nəzərdə tutulur".

Xatırladaq ki, bir müddət əvvəl AYB üzvlük haqqını ödəməyən bir qrup şair və yazıçını qurumdan xaric edib. İllik üzvlük haqqı 15 manat təşkil edir.

22_27 IYUl-QARA.qxd 6/18/2026 8:35 PM Page 11





# Ebola epidemiyası ilə bağlı təhlükəli xəbərdarlıq

***Afrika Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzləri (Africa CDC) Şərqi Afrikada sürətlə yayılan Ebola epidemiyasının tarixdə ən ölümcül yoluxma dalğasına çevrilə biləcəyi barədə beynəlxalq ictimaiyyətə xəbərdarlıq edib.***

Qurum bildirir ki, maliyyə çatışmazlığı, silahlı münaqişələr və səhiyyə sistemindəki problemlər virusun nəzarətdən çıxması riskini artırır.

Hazırkı epidemiya əvvəlki iri Ebola dalğalarından fərqli olaraq, daha nadir rast gəlinən Bundibuqyo ştammı ilə əlaqələndirilir. Bu virus növünə qarşı indiyədək təsdiqlənmiş peyvənd və ya xüsusi müalicə vasitəsi mövcud deyil.

Bildirilir ki, keçmişdə əsas diqqət daha geniş yayılmış Zaire ştammına yönəldiyi üçün Bundibuqyo virusuna qarşı hazırlıqlar kifayət qədər aparılmayıb.

Hazırda xəstələrə yalnız simptomları yüngülləşdirməyə yönəlmiş dəstəkləyici müalicə tətbiq olunur. Ölüm faizi 30-50 faiz arasında dəyişən virusun peyvəndsiz yayılması epidemiya ilə mübarizəni daha da çətinləşdirir.

Epidemiyanın əsas ocağı Konqo Demokratik Respublikasının şərqidir. Virus artıq qonşu Uqandaya da yayılıb. Bölgədə davam edən silahlı qarşıdurmalar səhiyyə işçilərinin yoluxan şəxsləri izləməsini və təmas zəncirini müəyyən etməsini, demək olar ki, mümkünsüz edib.

Ümumdünya Səhiyyə Təşkilatı fövqəladə vəziyyət elan etsə də, mütəxəssislər real yoluxma sayının rəsmi statistikadan xeyli yüksək ola biləcəyini bildirirlər. Məlumata görə, virusa yoluxduğu ehtimal edilən və izlənilməsi mümkün olmayan 26 mindən çox şəxsin harada olduğu məlum deyil.

Epidemiya ilə mübarizəni çətinləşdirən digər amil isə yerli əhali arasında yayılan dezinformasiya və dövlət qurumlarına inamsızlıqdır. Bəzi sakinlər Ebola virusunun beynəlxalq maliyyə yardımı əldə etmək məqsədilə uydurulduğunu iddia edir. Bu səbəbdən bir sıra xəstələr simptomlarını gizlədir, ənənəvi dəfn mərasimlərinin məhdudlaşdırılması isə gərginliyi artırır.

Son günlərdə yerli sakinlərin müalicə çadırlarını yandırması humanitar yardım və tibbi xidmətlərin fəaliyyətini ciddi şəkildə pozub.

Bildirilir ki, əvvəlki Ebola epidemiyalarından fərqli olaraq, bu dəfə beynəlxalq maliyyə dəstəyi kifayət deyil. Böhranla mübarizə üçün tələb olunan təxminən 500 milyon dollarlıq vəsaitin cəmi beşdə biri toplanıb. ABŞ və Avropa ölkələrinin xarici yardım proqramlarında etdiyi ixtisarlar nəticəsində maska, əlcək və qoruyucu geyim kimi əsas tibbi vasitələrin çatışmazlığı yaranıb.

Xəbərdarlıq edilir ki, təcili beynəlxalq dəstək göstərilməzsə, Şərqi Afrikadakı Ebola epidemiyası indiyədək qeydə alınmış ən ölümcül yoluxma dalğalarından birinə çevrilə bilər.

# Dövlət xəstəxanalarında növbə “bezpredeli”

## TƏBİB-in yerinə yetməyən vədi, pozulan disbalans, düzgün olmayan planlaşdırılma - Problem düşündüyümüzdən də ciddidir, bəs çıxış yolu varmı?

***Son dövrlərdə dövlət xəstəxanalarında yaranan uzun növbələrə dair narazılıqlar sürətlə artır. Sosial şəbəkələrdə mütəmadi şəkildə yayılan görüntülər vəziyyətin ciddiliyini açıq şəkildə göstərir. İnsanlar səhər tezdən xəstəxanalara axışaraq saatlarla növbə gözləməyə məcbur qalırlar. Üstəlik, analoji vəziyyət yalnız Bakı, Sumqayıt və Abşeronda deyil, bölgələrdə də aydın şəkildə nəzərə çarpır.***

Ötən ay jurnalist Elçin Rüstəmli sosial şəbəkə hesabında paylaşdığı məlumatda bildirmişdi ki, saat 07:46 olmasına baxmayaraq “Yeni klinika”da növbədə olanların sayı artıq 398 nəfərə çatıb.

Qeyd edək ki, oxşar mənzərə digər dövlət xəstəxanalarında da müşahidə olunur. Bəzi hallarda növbələrin sıxlığı o həddə çatır ki, insanlar qəbul şöbəsinə belə sığmır. Soyuq hava şəraitində xəstə vətəndaşlar xəstəxana həyətlərində uzun müddət gözləməyə məcbur qalırlar.



“Yeni Avaz”ın məlumatına görə, açıqlanan rəsmi məlumatlar onu göstərir ki, son illər xəstəxanaların və tibb işçilərinin sayı xəstələrin sayına mütənasib şəkildə artmır. Belə ki, son 25 ildə Azərbaycanda xəstəxanaların sayı təxminən 2 dəfə azalıb. Əgər 25 il əvvəl - 2001-ci ildə Azərbaycanda 735 xəstəxana olubsa, ötən il onların sayı 2,1 dəfə azalaraq 350-yə düşüb.

Eyni dövrdə əhalinin hər 10 000 nəfərinə düşən həkimlərin sayı 36,3-dən 34,4-ə, orta tibb işçilərinin sayı isə 60-dan 57,7-yə qədər azalıb. Bu dövrdə xəstəxana çarpayılarının sayında da kəskin azalma olub.

2001-ci ildə əhalinin hər 10 000 nəfərinə düşən xəstəxana çarpayılarının sayı 87,4 olubsa, 2025-ci ildə bu göstərici 39,4 olub.

Xəstəxana və tibb işçilərinin sayındakı bu azalmaya paralel olaraq ölkədə qeydə alınan xəstələrin sayı artıb. 25 il əvvəl - 2001-ci ildə ölkədə 1 milyon 346 min xəstə qeydə alındığı halda, 2025-ci ildə qeydə alınan xəstələrin sayı 2 milyon 870 min nəfər olub.

Bütün bunları nəzərə aldıqda dövlət xəstəxanalarında uzun növbələrin müşahidə edilməsi təəccüb doğurmur.

“Unikal”ın araşdırmasına görə, bu növbələrin yaranmasının əsas səbəbi həkim-pasiyent nisbətindəki disbalansla yanaşı, İcbari Tibbi Sığortanın tətbiqindən sonra xidmətlərin əlçatanlığının artması, bunun müqabilində isə tibbi xidmətin düzgün planlaşdırılmamasıdır. “İcbari tibbi sığortanın tətbiqi ilə müayinə və əməliyyatların pulsuz olması vətəndaşların xəstəxanalara axınına səbəb olur. Digər tərəfdən, bəzi sahələr üzrə mütəxəssis sayı və ya onların qəbul imkanları məhduddur. Bütün bunlar isə xəstəxanalarda sıxlığa, uzun növbələrin yaranmasına gətirib çıxarır” - qəzetimizə açıqlamasında Bakıdakı xəstəxanalardan birinin həkimi deyib.

Bir çox tibbi müəssisələrində hələ də onlayn növbə sisteminin mövcud olmadığını, bəzilərində TƏBİB rəhbərliyində dəyişiklikdən sonra müəyyən addımlar atılmağa başladığını deyən müsahibimiz eyni zamanda ölkədə az qala bütün xəstəliklərin həm artmasına, həm də cavanlaşmasına diqqət çəkib. Bunun normal olmadığını deyən mütəxəssis aidiyyatı qurumların sözügedən məsələ ilə bağlı dərin araşdırmalar aparmalı olduğuna diqqət çəkib.

Daha qəribəsi odur ki, onlayn və elektron növbə sisteminin tətbiq olunduğu xəstəxanalarda da durum ürəkaçan deyil. Sistemin mütəmadi çökməsi xəstələrin ciddi narazılığına səbəb olur və həkimləri çətin durumda qoyur. Yeri gəlmişkən, ötən ilin sonlarında deputatlardan biri bu məqama diqqət çəkmişdi. ““ASAN xidmət”, xüsusilə də elektron növbə sistemi uzun illərdir ki, nöqsansız işləyir. Amma bəzi qurumlar fərqli növbə sistemləri tətbiq edərək vətəndaşların problemlə üzləşməsinə səbəb olurlar. Özümüzdə tətbiq olunan və uğur qazanmış rəqəmsal həllərə üstünlük versək, daha yaxşı olar” - Milli Məclisin plenar iclasında deputat Naqif Həmzəyev bildirmişdi. O qeyd etmişdi ki, xəstəxana və poliklinikalarımızda elektron növbə sistemlərinin tətbiqi gecikir: “Dəfələrlə fərqli xəstəxanalarda olmuşam, gördüyüm mənzərə heç də ürəkaçan olmayıb. Müasir dövrdə kağız və ya köhnə üsullarla növbə təşkil edilməyə çalışılması effektiv deyil. ”Mygov” platformasında səhiyyə xidmətlərinin sayının artırılmasına və səhiyyə müəssisələrində növbə sisteminin tətbiqinə çox böyük ehtiyac var”.

Qeyd edək ki, hələ bir neçə il əvvəl TƏBİB elan etmişdi ki, xəstəxanalarda uzun növbələr tamamilə aradan qaldırılacaq. 2024-cü ildə tibb müəssisələrində onlayn növbə sisteminin tətbiqinə başlanılarkən adıçəkilən qurumun o vaxtkı rəhbəri Vüqar Qurbanov jurnalistlərə açıqlamasında təntənəli şəkildə bildirmişdi: “Xəstəxanalara müraciətlərin çoxluğuna görə növbələr olurdu və bu da vətəndaşlar üçün çətinlik yaradırdı. Ona görə də ilk olaraq Bakıdakı xəstəxanalar onlayn növbəyə keçdi. Vətəndaşlar evdə oturaraq öz növbələrini rahat şəkildə götürə biləcək və tibbi xidmətlərdən keyfiyyətli şəkildə istifadə edəcəklər”.

Lakin TƏBİB-in sabiq rəhbərinin bu sözləri həm o vəzifədə olarkən, həm də hazırkı vəziyyətdə elə vəd olaraq da qalıb. Ən pisi isə odur ki, gedişatdan belə aydın olur, ən azından yaxın gələcəkdə də vəd olaraq qalacaq.

***Toğrul Əliyev***

## 5.3.19. uşaq və gənclərin fiziki və mənəvi inkişafı

# Azərbaycanda uşaqların sosial şəbəkələrə çıxışı ilə bağlı yeni tələblər

Jalə Əliyeva:" İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna təklif edilən dəyişikliklər bir tərəfdən qlobal sosial media platformalarının ölkədə fəaliyyətinin hüquqi çərçivəsini müəyyənləşdirir, digər tərəfdən isə uşaqların və yeniyetmələrin zərərli məzmundan qorunmasına xidmət edir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Azərbaycanda sosial şəbəkələrdən istifadə ilə bağlı yeni qaydaların tətbiqi gündəmə gəlib. “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” qanuna dəyişiklik layihəsi Milli Məclisin İnsan hüquqları, Ailə, qadın və uşaq məsələləri, eləcə də Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında müzakirəyə çıxarılıb.***

Yeni sənəd sosial şəbəkə qlobal nəhənglərinin (Meta, TikTok, Google və s.) Azərbaycandakı fəaliyyətini leqallaşdırmaqla yanaşı, istifadəçilər üçün ciddi yaş senzinin tətbiqini nəzərdə tutur.

Qanun layihəsinin ən çox müzakirə edilən bəndi yeniyetmələrin sosial platformalardakı fəaliyyətinin məhdudlaşdırılması ilə bağlıdır.

Birinci məqam sosial şəbəkələrdə qeydiyyatla bağlı tələbləri əks etdirir.

Belə ki, Azərbaycanda 16 yaşı tamam olmamış şəxslərin sosial şəbəkələrdə fərdi rəqəmsal hesab (profil) yaratmasına rəsmi olaraq yol verilməyəcək. Digər təklif,

mütəmadi təhlil və davranış monitorinqi ilə bağlıdır. Yəni, provayderlər (sosial şəbəkə platformaları) istifadəçilərin profildəki davranışlarını, yazışma və maraq dairələrini mütəmadi olaraq alqoritmlər vasitəsilə təhlil etməyə borclu olacaqlar.

Həmçinin təklifdə təkrar yaş yoxlanılması (Age Verification) da var. Əgər istifadəçinin sistemə daxil etdiyi rəsmi yaşı ilə real davranışı arasında ziddiyyət yaranarsa (əsaslı şübhələr doğurarsa), platforma həmin şəxsdən təkrar yaş təsdiqi tələb etməlidir.

Bunlarla yanaşı, dərhal bloklanma təklifi də irəli sürülür. Yaş tələbinin pozulması (yəni istifadəçinin əslində 16 yaşdan kiçik olması) aşkar edildiyi an, həmin hesaba giriş dərhal məhdudlaşdırılacaq.

Qeyd edək ki, bir müddət əvvəl Prezident İlham Əliyev uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Belə ki, sənəddə rəqəmsallaşmanın sürətlənməsi fonunda sosial şəbəkələrin uşaqların həyatında artan rolunun yaratdığı risklərə diqqət çəkilir və onların psixoloji rifahı ilə təhlükəsizliyinin qorunmasının vacibliyi vurğulanır.

Sərəncama əsasən, sosial şəbəkələrdə yaş məhdudiyyətlərinin tətbiqi, valideyn nəzarətinin gücləndirilməsi və platformadaxili təhlükəsizlik mexanizmlərinin yaradılması istiqamətində tədbirlərin görülməsi nəzərdə tutulur. Bundan əlavə, təhsil proqramlarına rəqəmsal savadlılıq və kibertəhlükəsizlik mövzularının daxil edilməsi, valideynlər və müəllimlər üçün maarifləndirmə işlərinin genişləndirilməsi planlaşdırılır.



Azərbaycanda da azyaşlıların sosial şəbəkələrdə həddindən artıq vaxt keçirməsi, yaşlarına uyğun olmayan məzmunla qarşılaşması, onlayn oyunlar və virtual tanışlıqlar vasitəsilə risk altına düşməsi artıq açıq şəkildə müşahidə olunur. Valideyn nəzarətinin zəifliyi və hüquqi mexanizmlərin yetərincə tənzimlənməməsi bu riskləri daha da dərinləşdirir.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva “Unikal” qəzetinə müsahibəsində bildirib ki, Azərbaycanda sosial şəbəkələrdən istifadə ilə bağlı yeni qaydaların tətbiqinin gündəmə gətirilməsi informasiya təhlükəsizliyi və uşaqların müdafiəsi sahəsində atılan mühüm addımlardan biridir. Onun sözlərinə görə, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” qanuna təklif edilən dəyişikliklər bir tərəfdən qlobal sosial media platformalarının ölkədə fəaliyyətinin hüquqi çərçivəsini müəyyənləşdirir, digər tərəfdən isə uşaqların və yeniyetmələrin zərərli məzmundan qorunmasına xidmət edir.

“Müasir dövrdə internet və sosial şəbəkələr həyatımızın ayrılmaz hissəsinə çevrilib. Bununla yanaşı, rəqəmsal mühitdə uşaqların qarşılaşdığı risklər də artmaqdadır. Kiberzorakılıq, psixoloji təsir yaradan məzmunlar, zorakılığın təbliği, qumar və narkotik vasitələrin reklamı, eləcə də yaş həddinə uyğun olmayan görüntülər uşaqların fiziki və mənəvi inkişafına ciddi mənfi təsir göstərə bilər.

Bu baxımdan sosial şəbəkələrdə yaş senzinin tətbiqi beynəlxalq təcrübəyə uyğun və zəruri addım hesab edilə bilər. Dünyanın bir çox inkişaf etmiş ölkələrində uşaqların rəqəmsal mühitdə qorunması məqsədilə müxtəlif məhdudiyyətlər tətbiq olunur. Azərbaycanın da bu istiqamətdə qanunvericilik bazasını təkmilləşdirməsi dövlətin uşaqların təhlükəsizliyinə verdiyi önəmin göstəricisidir.

Təklif olunan dəyişikliklərin digər mühüm tərəfi isə qlobal texnologiya şirkətlərinin ölkə qanunvericiliyinə uyğun fəaliyyət göstərməsinə şərait yaratmasıdır. Bu, qanunsuz və zərərli məzmunlarla mübarizəni daha effektiv edə, vətəndaş müraciətlərinə operativ baxılmasını təmin edə və platformaların sosial məsuliyyətini artırmağa xidmət edə bilər.

Məsələyə yalnız qadağalar prizmasından deyil, həm də maarifləndirmə baxımından yanaşmaq vacibdir. Uşaqların təhlükəsiz internet istifadəsi üçün ailə, məktəb və dövlət qurumları arasında koordinasiyalı əməkdaşlıq mühüm əhəmiyyət daşıyır”, deyə müsahibimiz bildirib. Deputat əlavə edib ki, rəqəmsal savadlılığın artırılması uşaqların internetdə qarşılaşdıqları riskləri daha yaxşı dərk etmələrinə kömək edə bilər:” Bunun üçün məktəblərdə rəqəmsal təhlükəsizlik və media savadlılığı üzrə xüsusi dərslərin təşkili, valideynlər üçün sosial şəbəkələrdən təhlükəsiz istifadə ilə bağlı maarifləndirici proqramların həyata keçirilməsi, uşaqlar üçün nəzərdə tutulmuş platformalarda gücləndirilmiş valideyn nəzarəti mexanizmlərinin tətbiqi, zərərli məzmunların aşkarlanması və silinməsi prosesində süni intellekt texnologiyalarından istifadənin genişləndirilməsi, sosial media şirkətlərinin məsuliyyət mexanizmlərinin gücləndirilməsi və s. kimi addımların atılması vacibdir.

Bir daha qeyd etmək yerinə düşər ki, sosial şəbəkələrdən istifadə qaydalarının təkmilləşdirilməsi və yaş senzinin tətbiqi uşaqların informasiya təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Ümid edirik ki, bu dəyişikliklər sağlam rəqəmsal mühitin formalaşmasına, gənc nəslin mənəvi və psixoloji inkişafının qorunmasına, eləcə də informasiya məkanında məsuliyyətli davranış mədəniyyətinin güclənməsinə xidmət edəcək”.

Elə beynəlxalq təcrübə də göstərir ki, dövlətlər bu məsələni artıq fərdi ailə problemi deyil, milli təhlükəsizlik və ictimai sağlamlıq məsələsi kimi qiymətləndirirlər. Azərbaycanda da oxşar yanaşmanın formalaşdırılması, azyaşlıların sosial şəbəkələrdən istifadəsinin yaş məhdudiyyəti, valideyn razılığı və effektiv nəzarət mexanizmləri ilə tənzimlənməsi vacib hesab olunur.

Apardığımız araşdırma zamanı məlum oldu ki, dünya dövlətlərinin bəziləri uşaq və gənclərin mənəvi inkişafı, sosial şəbəkələrdə zərərli informasiyalardan qorunması üçün nəzarəti gücləndirib.

2024-cü ilin noyabrında dünyada ilk dəfə olaraq Avstraliyada 16 yaşdan kiçik uşaqların sosial şəbəkələrdən istifadə etməsini qadağan edən qanun qəbul edilib. Bu qanun mövcud hesablardan istifadə etməyi və yeni hesab açmağı əhatə edir və sosial media şirkətlərini buna uyğun yaş təsdiqi sistemləri tətbiq etməyə məcbur edir. Qanuna əməl etməyən şirkətlər ciddi cərimələrlə üzləşə bilər. Belə tədbirlər nəticəsində sosial media platformaları təxminən 4.7 milyon hesabı deaktiv edib.

Fransa parlamenti da 15 yaşdan kiçik şəxslərin sosial şəbəkə istifadəsini qadağan edən qanunu təsdiqləyib. Qanunun qəbulunda məqsəd uşaqların psixoloji sağlamlığını və təhlükəsizliyini artırmaqdır. Qanuna görə sosial platformalar qeydiyyat zamanı istifadəçilərin yaşını yoxlamalıdır.

Böyük Britaniyada 16 yaşdan kiçik uşaqların sosial mediadan istifadəsi qadağan edilə bilər.

Unikal.az-ın məlumatına görə, bu barədə "The Times" qəzeti hökumət mənbələrinə istinadən məlumat yayıb.

Tədbir bu ilin əvvəlində qüvvəyə minə bilər. Plan süni intellekt botlarının istifadəsini məhdudlaşdırmaq, telefon istifadəsinə vaxt məhdudiyyətləri qoymaq və qısa videolara baxmaq və sonsuz sayda video yayımlamaq kimi "asılılıq yaradan xüsusiyyətləri" məhdudlaşdırmaqdır. Qadağa virtual özəl şəbəkələrə girişi də əhatə edə bilər ki, bu şəbəkələrdən "müəyyən filmlərə qanunsuz daxil olmaq üçün istifadə edilə bilər". Tədbir bu yay məsləhətləşmələr başa çatdıqdan sonra tətbiq oluna bilər.

Polşada da 15 yaşdan kiçik uşaqların sosial şəbəkələrdən istifadəsinin məhdudlaşdırılması nəzərdə tutulub. Polşanın Rəqəmsal Məsələlər üzrə Naziri Kşiştof Qavkovski “TVP World”ə bildirib ki, yeni qanun layihəsi üzərində iş gedir.

15 yaşdan kiçik uşaqların sosial şəbəkələrdən istifadəsinin məhdudlaşdırılmasını nəzərdə tutan qanun layihəsi Polşanın hakim Vətəndaş Koalisiyası alyansının deputatları tərəfindən irəli sürülüb. Layihəni dəstəkləyənlər arasında təhsil naziri Barbara Novaçka da var.

Yeni qanunun sentyabrın 1-də qüvvəyə minməsi gözlənilir.

Xatırladaq ki, Avstraliya keçən il 16 yaşdan kiçiklər üçün sosial medianı qadağan edən ilk ölkə oldu. Danimarka, İspaniya, Yunanıstan kimi Avropa ölkələri də oxşar addımlar atmağa hazırlaşır. Odur ki, Azərbaycanın da uşaq və yeniyetmələri zərərli informasiyalardan qorumaq üçün sosial şəbəkələrdə qeydiyyat tələbinin sərtləşdirməsi onların hüquq və azadlıqlarının məhdudlaşdırılması kimi yox, onları zərərli informasiyalardan qorunması məqsədi daşıyır.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

22_27 IYUl-QARA.qxd 6/18/2026 8:36 PM Page 13



# Evlənən və boşananların sayı açıqlandı

***Azərbaycanda bu ilin ilk 4 ayında 11 min 422 nikaha daxilolma və 6 min 443 boşanma halları qeydə alınıb.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Qeyd edilib ki, 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,4-dən 3,4-ə, boşanmaların sayı isə 2,0-dan 1,9-a düşüb.

# 33 il beynəlxalq axtarışda olan şəxs Azərbaycana ekstradisiya edildi



***Ədliyyə Nazirliyi tərəfindən xarici dövlətlərin aidiyyəti qurumları ilə beynəlxalq axtarışa verilmiş, cinayət törədilməsində ittiham olunan şəxslərin tutularaq ölkəmizə gətirilməsi ilə bağlı səmərəli əməkdaşlıq tədbirləri davam etdirilir. İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosu tərəfindən beynəlxalq axtarışa verilən və yeri Almaniyada müəyyən edilən daha bir şəxsin iyunun 18-də Nazirlik tərəfindən Azərbaycana ekstradisiyası həyata keçirilib.***

Nazirlikdən "Unikal"a verilən məlumata görə, 90-cı illərin əvvəlində tamah niyyəti ilə maddi sərvət əldə etmək məqsədilə digər şəxslərlə cinayət əlaqəsinə girib zorakılıqla bağlı olan basqınla müşayiət olunan quldurluq hərəkətləri edərək, zərərçəkmiş Qurbanəli Mustafayevin sağlamlığına ağır zərər vurmaqla onu qəsdən öldürməkdə (Azərbaycan Respublikasının qüvvədə olmuş Cinayət Məcəlləsinin 94-cü maddəsinin 2-ci bəndi və 145-ci maddəsinin 2-ci hissəsinin 1,2,3,6,8-ci bəndləri) ittiham edilmiş və 33 il beynəlxalq axtarışda olan Gürcüstan vətəndaşı Şamilov Elşən Həsən oğlunun yeri Almaniyada müəyyən olunub və o, həbs edilib.

Baş Prokurorluğun sorğusu və beynəlxalq prosedurlara uyğun tələb olunan sənədlərin təqdimatından, habelə aparılan danışıqlardan sonra həmin şəxsin Azərbaycana ekstradisiyası ilə bağlı razılıq əldə olunub. Bu, dövlətimizin beynəlxalq nüfuzunu və Almaniya Federativ Respublikasının ölkəmiz üçün etibarlı tərəfdaş olmasını bir daha təsdiqləyir.

Şamilov Elşən Həsən oğlu Ədliyyə Nazirliyinin Beynəlxalq əməkdaşlıq baş idarəsinin və Nazirliyin Penitensiar xidmətinin məsul əməkdaşları tərəfindən Almaniyanın Frankfurt şəhərindən ölkəmizə gətirilib və məhkəmənin həbs qərarına əsasən müvafiq istintaq təcridaxanasına yerləşdirilib.

Nazirlik tərəfindən bu sahədə lazımi tədbirlər davam etdirilir.

# Azad olunmuş ərazilərdə yaşayanların sayı açıqlandı

***Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə qayıdan keçmiş məcburi köçkünlərin sayı 36 mini ötüb.***

"Unikal" xəbər verir ki, bu barədə məlumat Dövlət Statistika Komitəsinin ölkənin 2026-cı ilin yanvar-may ayları üzrə iqtisadi və sosial inkişaf göstəricilərinə dair nəşrində öz əksini tapıb.

Bildirilib ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına əsasən, Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində 2026-cı il iyunun 1-dək işğaldan azad olunmuş ərazilərə 36 492 nəfər keçmiş məcburi köçkün geri qayıdıb.

Məlumata görə, bununla da işğaldan azad edilmiş ərazilərdə yaşayan, fəaliyyət göstərən və təhsil alan şəxslərin ümumi sayı 88 123 nəfərə çatıb.

# Bakıda növbəti "Kənddən Şəhərə" yarmarkası təşkil olunacaq

***20-21 iyun tarixlərində Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Aqrar Tədarük və Təchizat" ASC-nin təşkilatçılığı ilə paytaxtda növbəti "Kənddən Şəhərə" həftəsonu yarmarkası keçiriləcək.***




"Unikal" xəbər verir ki, ənənəvi olaraq təşkil olunan bu yarmarka həm yerli fermerlərin satış imkanlarının genişləndirilməsini, həm də şəhər sakinlərinin sağlam və təbii məhsullarla təmin olunmasını hədəfləyir.

Tədbirdə ölkənin müxtəlif bölgələrindən 20-ə yaxın regiondan , 40-a yaxın fermer iştirak edəcək. Fermerlər 100-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsulunu şəhər sakinlərinə birbaşa təqdim edəcəklər.

Məhsulların təhlükəsizliyinə və keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Hər hansı sualı olan alıcılar isə ərazidə fəaliyyət göstərəcək Səyyar Qida Laboratoriyasına yaxınlaşaraq məhsulları yerindəcə analiz etdirə biləcəklər.

Yarmarka saat 09:00-dan 19:00-dək, iki gün ərzində Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi 5 ünvanında ("Gənclik" metro stansiyasının yaxınlığı) fəaliyyət göstərəcək.

Qeyd edək ki, iştirak edən fermerlərə piştaxtalar, tərəzilər və digər vacib avadanlıqlar ödənişsiz şəkildə təqdim olunur.

# Ağdaşda yazlıq bitkilərin əkini və nəqliyyatın əsas göstəriciləri

***Rayonda fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında 01 iyun 2026-cı il tarixə 4401,6 hektar sahədə yazlıq bitkilərin əkini aparılmışdır. Bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 367,5 hektar və ya 7,7 faiz azdır.***

Əkilmiş yazlıq əkinlərin 2112,5 hektarını yonca, 1018,0 hektarını tərəvəz, 632,4 hektarını yazlıq dənli və dənli paxlalılar (ondan 25,5 hektarını buğda, 27,7 hektarını vələmir, 376,2 hektarını çəltik), 233,6 hektarını kartof, 181,5 hektarını qarğıdalı, 161,6 hektarını bostan bitkiləri, 62,0 hektarını isə dən üçün günəbaxan bitkiləri təşkil etmişdir.

2026-cı ilin yanvar-mart ayları ərzində nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə məhsul buraxılışı əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 0,4 faiz artaraq 1608,1 min manat olmuşdur. Nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə məhsul buraxılışının 1441,6 min manatı, 89,6 faizi fiziki şəxslərin payına düşmüş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz və ya 48,4 min manat artmışdır.

Fiziki şəxslər tərəfindən yerinə yetirilmiş iş və xidmətlərin 766,0 min manatı və ya 53,1 faizi yük daşınmasının, 675,6 min manatı və ya 46,9 faizi isə sərnişin daşınmasının payına düşmüşdür. Əvvəlki ilin müvafiq dövrünə nisbətən 2026-cı ilin yanvar-mart aylarında fiziki şəxslər üzrə məhsul buraxılışının ümumi həcmində yük daşınması 3,3 faiz və ya 24,7 min manat, sərnişin daşınması isə 3,6 faiz və ya 23,7 min manat art-



mışdır.

2026-cı ilin yanvar-mart aylarında avtomobil nəqliyyatı ilə 357,0 min ton yük, 3353,0 min sərnişin daşınmışdır. Əvvəlki ilin müvafiq dövrünə nisbətən yük daşınması 5,0 faiz və ya 17,0 min ton, sərnişin daşınması isə 6,7 faiz və ya 210,0 min sərnişin artmışdır.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Taksi sifarişi operatorlarının iştirakı ilə yeni layihənin icrasına başlanıldı

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA), İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA), taksi sifarişi operatorlarının iştirakı ilə "Digital Finance" layihəsinin icrasına başlanılıb.***

"Unikal" AYNA-ya istinadən xəbər verir ki, İRİA-nın dəstəyi ilə həyata keçirilən "Digital Finance" layihəsi çərçivəsində iki böyük taksi sifarişi operatorunda ("Bolt" və "Uber/Yango") yeni rəqəmsal həll tətbiq edilib.

Yeni sistem taksi bazarında şəffaflığın artırılması, sənədlərin yoxlanılması prosesinin avtomatlaşdırılması, sürücülərə dair tələblərə nəzarətin gücləndirilməsi və sərnişinlər üçün təhlükəsizlik və




xidmət keyfiyyətinin yüksəldilməsinə hesablanıb.

Layihənin məqsədi operatorların mobil tətbiqlərində yeni sürücü qeydiyyatı zamanı "Xüsusi hazırlıq şəhadətnaməsi" və "Buraxılış kartı" məlumatlarının texnoloji həll vasitəsilə real vaxt rejimində avtomatik yoxlanılmasının təmin edilməsidir.

Əlavə olaraq, sürücülərin "Xüsusi hazırlıq şəhadətnaməsi" məlumatlarının paylaşılmasına dair öz "myGov" kabinetləri üzərindən razılıq vermələri tələb olunur.

Qeyd edək ki, indiyədək yeni sürücü qeydiyyatı zamanı "Xüsusi hazırlıq şəhadətnaməsi" və "Buraxılış kartı" məlumatlarının yoxlanılması prosesi taksi sifarişi operatorları tərəfindən avtomatik deyil, əl ilə icra edilirdi. Bu isə buraxılış kartı olmadan və təlimdən keçməyən sürücülərin asanlıqla qeydiyyatdan keçərək taksi sifarişi operatorlarının sistemlərində sürücü profili yaratmaqla fəaliyyət göstərmələrinə imkan verirdi. İndi isə qeyd olunan sənədlərin mövcudluğu yaradılmış inteqrasiya əsasında yoxlanılacaq, sözügedən sənəd və icazələri olmayan şəxslər sürücü kimi fəaliyyət göstərə bilməyəcəklər.

22_27 IYUl-QARA.qxd 6/18/2026 8:36 PM Page 14



# Vətənə canını fəda edən Cahid...



***1994-cü ildə Biləsuvar rayonunun Çaylı kəndində dünyaya göz açan Cahid Şaiq oğlu Qəniyev layaqətli bir övlad olaraq Vətən qarşısında son borcunu layiqincə verməyi bacarıb.***

Belə ki, Azərbaycan və dünya hərb tarixinə qızıl hərflərlə yazılan 44 günlük haqq savaşımızda son damla qanına qədər yağıya qarşı mübarizə aparıb, şəhidlik zirvəsinə ucalıb. Bununla qazanılan qələbəmizin qəhrəmanlıq simvoluna dönən Biləsuvar elinin igid oğlu torpağa gömülmədi, yeri-yurdu milyonların ürəyi oldu. Dövlət də daimi Cahidin adını yüksəkdə saxlamaq üçün onun əbədi ömrünə "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin, Suqovuşanın azadlığı uğrunda medalları ilə bir şərəf qatıb.

Qanında mərdlik, cəngavərlik ruhu olan Cahid Qəniyev cəbhə bölgəsində əsgərliyə başlayanda Vətənini özündən çox istəyib. Qarabağımızın erməni qəsbkarlarının tapdağı altında olması onu çox narahat edib. Nümunəvi xidməti, Vətən yolunda özünü hər an fəda etməyə hazır olması ona zabitlərin, əsgərlərin yanında böyük hörmət qazandırıb. Xidmət zamanı əsl vətəndaş, mənəvi cəhətdən zəngin insan, vətənpərvər əsgər olduğunu yaxşı göstərib. Həmçinin qatıldığı təlimlərdə döyüş igidliyinə görə fərqlənib, öyrənmək həvəsi, səriştəsi, xarakterindəki müsbət keyfiyyətləri bir qayda olaraq diqqət cəlb edib. Cahid Vətən naminə erməni dığalardan alacağı öcə görə hər şeyə hazır durub. Qarabağı tezliklə azad görmək bütün arzuların zirvəsində dayanıb. Məhz buna görə də murdar niyyətli erməni dığalarla mərdliklə vuruşmağa, onlara qarşı amansız olacağına and içib.

2014-cü ildə Cahidin əsgəri xidməti bitib, amma yağıdan alacağı öcü qalıb. Odur ki, az müddət sonra yenidən şanlı formanı geyinib Vətənin keşiyində durub. Həm də əsgərlərdə öz şəxsi nümunəsi ilə Vətənə məhəbbət, cəsurluq, kişilik, düşmənə nifrət hisslərini oyadıb. Həmişə deyib ki, ermənilərdən qorxmaq Azərbaycanın qeyrətli oğullarına heç cür yaraşmır. Vətəni qorumaq, bu yolda şəhid olmaq bizim şərəfli borcumuzdur. Müharibə başlansa ordumuz mütləq qələbə qazanacaq.

Bəli, Vətən müharibəsinin ilk günündən Azərbaycan ordusunun giziri Cahid Qəniyev öndə olmaqla rəşadətlə vuruşub. Ciddi sınaqdan zəfərlə ayrılan igid Vətən sevdalının hünəri hamını heyran qoyub. Daha sonra Tərtər rayonunun Talış qəsəbəsinin alınması uğrunda gedən ordumuzun hücumunda düşmənə sarsıdıcı zərbələr endirib, onların 1 ədəd hərbi texnikasını, 20 nəfərə yaxın canlı qüvvəsini məhv edib. Suqovuşanda da ağır ölüm-dirim savaşında dığaların üstünə qartal tək şığıyıb, qana susayan erməni dığalarına ağır itkilərlə cavab verib. Həmçinin qızğın döyüşlər gedən zaman bir neçə yaralı əsgər yoldaşını müharibə meydanından çıxarıb. Sonuncu dəfə Cahid şəxsi heyətin döyüş ruhunu yüksəltmək məqsədilə düşmən səngərinə tək başına hücum çəkib. Nəticədə düşmən ciddi itki verə-verə qaçmağa üz qoyub. Təəssüf ki, Cahidin Vətənə bağlı ürəyi də qəfil atılan gülləyə tuş gəlib.

Doğru deyirlər ki, Vətən üçün yaşayanlar ölmürlər. Onlar əbədi olaraq öz xalqının şərəf və qürur yeri olaraq həmişə xatırlanır, keçdikləri şərəfli ömür yolları həyat məktəbi kimi örnək göstərilir. Məhz Cahid Qəniyev də belə ölməz qəhrəmanlardandır.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# 2026-ci ilin yanvar-mart ayları Yevlax rayonu üzrə "Kənd təsərrüfatı ilə bağlı ümumi məlumat"




***Yevlax rayonun iqtisadiyyatında kənd təsərrüfatı prioritet sahədir. Rayonun iqtisadiyyatında taxılçılıq, pambıqçılıq, tərəvəzçilik, bostançılıq və heyvandarlıq aparıcı rol oynayır.***

2026-cı il bir sıra çətinliklərə baxmayaraq rayonun kənd təsərrüfatı üçün əsasən uğurlu keçir. Aqrar islahatların müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində torpağın və əmlakın xüsusi mülkiyyətə verilməsi, qısa və uzunmüddətli kreditlərin verilməsi. Aqrolizinq müəssisələrin fəaliyyətə başlaması və.s kimi tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatında çalışanların maddi marağının artmasına stimul yaratmış və ayrı-ayrı məhsul növlərinin əkininin artmasında əsaslı irəliləyişlərə səbəb olmuşdur.

Kənd təsərrüfatı müəssisələri, əhali və fermer təsərrüfatlarında 2026-cı ilin məhsulu üçün payızlıq bitkilərin səpini başa çatmışdır. Belə ki, 2026-cı ilin məhsulu üçün 4226,6 hektar sahədə buğda, 6550,6 hektar sahədə isə arpa səpini aparılmışdır.

Əvvəlki ilin yanvar-mart ayları ilə müqayisədə 199,1 hektar az buğda, 624,2 hektar çox arpa səpini aparılmışdır. Yazlıq bitkilərin əkini üçün 16732,0 hektar sahə şumlanaraq arata qoyulmuşdur. Aprelin 1-i vəziyyətinə 3837,0 hektar yazlıq bitkiləri əkilmişdir ki, ondan 17,0 hektar qarğıdalı, 3380,0 hektar çoxillik otlar (təzə yonca), 90,0 hektar kartof, 235,0 hektar tərəvəz, 115,0 hektar günəbaxan olmuşdur.

Keçən ilin yanvar-mart aylarında 4098,0 hektar yazlıq bitkiləri əkilmişdir ki, bu da 261,0 hektar və ya 6,8 faiz az olmuşdur.

Cari ilin yanvar-mart aylarında ət istehsalı (diri çəkidə) 2289,1 ton, süd istehsalı 9854,5 ton, yumurta istehsalı 5554 min ədəd olmuş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 50,5 ton, süd istehsalı 2,9 ton az, yumurta istehsalı 534 ədəd çox olmuşdur. 01.04.2026-ci il vəziyyətinə 68924 baş mal-qara, o cümlədən 29352 baş inək və camışlar, 177247 baş qoyun və keçi, 459989 baş quş mövcuddur.

***Yevlax Şəhər***
***Statistika İdarəsinin rəisi***
***Saleh Cəfərov***



# Bakıda binanın üstündə ev tikilib - Narazılıq

***Bakının mərkəzində yerləşən 12 mərtəbəli binanın mansard hissəsində qanunsuz tikinti işlərinin aparıldığı iddia olunur.***

"Unikal" xəbər verir ki, bu şikayətlə Aşıq Molla Cümə küçəsi giriş 3, M12, M2 ünvanında yerləşən "Monolit" MTK-ya məxsus yaşayış binasının sakinlərindən biri "Xəzər TV"yə müraciət edib.

Şikayətçinin vəkili Elməddin Məhərrəmov iddiasında bildirib ki, "Monolit" MTK ərazidə yerləşən 4 binanın sakinlərə məxsus olan çardaq və texniki sahəsini qanunsuz olaraq maklerlərdən birinə yeni mənzil inşası üçün satıb. İddialara görə, sakinlərin ümumi istifadəsində olan, yaşayış üçün ayrılmayan texniki sahədə qanunsuz tikinti işləri 5 aydan çoxdur ki, davam etdirilir.

Şikayətçi onu da iddia edib ki, qeyri-yaşayış sahəsində tikilən mənzillər üçün yaxınlıqda yerləşən binalardan qanunsuz qaz xətti çəkilib, eləcə də, su, kanalizasiya, elektrik xətləri də aşağı mərtəbələrdə yaşayan qonşuların xəttinə birləşdirilib.

Şikayətçinin sözlərinə görə, 4 binada aparılan qanunsuz tikinti işləri barədə aidiyyəti qurumlara müraciət edildikdən sonra 3 binada tikinti dayandırılıb, 1 binada isə tikinti işləri hələ də davam etdirilir.

"Monolit" MTK-nın əməkdaşı iddialara aydınlıq gətirərək, aparılan işlərin tam qanuni, layihəyə uyğun və razılaşdırılmış olduğunu bildirib. Tikintinin müvafiq qurumlarla razılaşdırılmış olduğuna dair müvafiq sənədləri isə təqdim etməyəcəkləri deyilib.

Şirkət mansard hissədə heç bir əlavə tikintinin aparılmadığını bildirsə də, 12-ci mərtəbəyə qalxan zaman tikinti işlərinin həyata keçirildiyi müşahidə edilib.

Hətta sosial şəbəkələrdə sözügedən binaya məxsus mansard tipli mənzillərin satışı üçün elanlar da həyata keçirilir.

Mansardın sahibi olduğunu iddia edən İlkin Rəhimov bildirib ki, aparılan tikinti işləri rəsmi qurumlarla razılaşdırılıb və mənzillərə bütün kommunal sayğaclar da qoyulub.

Məsələ ilə bağlı Fövqəladə Hallar Nazirliyindən bildirilib ki, "Monolit" MTK tərəfindən inşa edilmiş 2 ədəd 12 mərtəbəli yaşayış binasının çardaq və texniki sahəsində əlavə pəncərə oyuqlarının açılması, əlavə mənzillərin tikilməsi barədə sakinlərdən daxil olmuş şikayətlər araşdırılıb. Binaların dam hissəsinə baxış keçirilib və qanunsuz, layihədənkənar aparılan tikinti işləri barədə MTK rəhbərliyinə və aidiyyəti qurumlara məktub ünvanlanıb.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən isə bildirilib ki, məsələ ilə müvafiq tədbirlər görülməsi üçün aidiyyəti qurumlara müraciət edilib.

22_27 IYUI-QARA.qxd 6/18/2026 8:36 PM Page 15



## "İsrail bölgədə dağıntılar istəyir" - Hakan Fidan



***İsrailin bölgədəki təcavüzkar hərəkətləri bütün dünya üçün problemə çevrilib.***

"Unikal" xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan 16-17 iyun tarixlərində Rusiyaya səfərindən sonra "Türkiye" qəzetinə bildirib.

"Bu, təkcə Türkiyənin problemi deyil. İsrail bölgədə dağıntılar istəyir. O, bəzi ölkələri işğal etmək və terror aktları törətmək istəyir ki, bu da qlobal təhlükəsizlik, eləcə də iqtisadi sahədə nəticələrə səbəb olur. Görürük ki, İsrail getdikcə beynəlxalq ictimaiyyətin reaksiyası ilə üzləşir. Ümid edirik ki, bu, öz bəhrəsini verəcək və bölgəmizdəki bütün ölkələr sülh, sabitlik və rifah içində yaşayacaqlar", - deyə Fidan qeyd edib.

***Ağarza Elçinoğlu***

## "Türkiyə Ermənistanla münasibətləri normallaşdırmağa hazırdır"



***"Türkiyə hakimiyyəti lazımi şərtlər yaranarsa, Ermənistanla münasibətləri normallaşdırmağa hazırdır".***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin xarici işlər naziri Hakan Fidan Rusiyaya səfərindən sonra "Türkiye" qəzetinə bildirib.

"Nikol Paşinyan hökuməti çox vacib addımlar atıb. Türkiyə Prezidenti Tayyib Ərdoğanın göstərişi ilə birbaşa ticarət və hava səyahətinin qurulması da daxil olmaqla bir çox vacib addımlar atılıb. Yeni dövrdə görüləsi işlər də aydındır. Lazımi şərtlər yarandıqda normallaşmaya hazırıq", - deyə Fidan qeyd edib.

***Gülayə Mecid***

## Ermənistan KTMT-də səsvermə hüququnu itirə bilər



***Ermənistan üç ildir KTMT-də üzvlük haqqını ödəmir.***

"Unikal" xəbər verir ki, bunu KTMT-nin baş katibi Tələtbek Masadikov bildirib.

"Ermənistan de-fakto təşkilatın işində praktiki olaraq iştirak etmir, halbuki de-yure KTMT-nin tamhüquqlu üzvüdür. KTMT üzv dövlətləri Ermənistanın statusunu və üzvlük haqqının ödənilməməsi halında səsvermə hüququndan məhrum edilməsi məsələsini müzakirə edirlər. Bəli, bu məsələ müzakirə olunur.

Bu yaxınlarda Kazanda Xarici İşlər Nazirləri Şurasının iclası keçirildi və orada xarici işlər nazirləri bu məsələni ətraflı müzakirə etdilər", - deyə o qeyd edib.

***Ağarza Elçinoğlu***

## İsrail Lukaşenkonun açıqlamalarına görə səfirə irad bildirdi

***Belarusun Təl-Əvivdəki səfiri Yuri Yaroşeviç iyunun 17-də İsrail Xarici İşlər Nazirliyinə çağırılıb.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, buna səbəb Belarus Prezidenti Aleksandr Lukaşenkonun Qəzza zolağında İsrail Müdafiə Ordusunun (SAXAL) fəaliyyəti ilə bağlı tənqidi fikirləri və həmin hərbi əməliyyatları Holokostla müqayisə etməsi olub. Məlumata görə, İsrail XİN-in baş direktoru Eden Bar-Tal Belarus səfirini qəbul edərək Lukaşenkonun açıqlamalarına görə ona rəsmi irad bildirib.

İsrail Xarici İşlər Nazirliyi "X" sosial şəbəkəsində də Lukaşenkonun beynəlxalq ictimaiyyətin israillilərə qarşı törədilən cinayətləri müzakirə etdiyi açıqlayıb.

***Gülayə Mecid***

# Tramp və Pezeşkian ABŞ-İran sazişini imzaladılar

***ABŞ Prezidenti Donald Tramp Fransa Prezidenti Emmanuel Makronun Versal sarayında təşkil etdiyi şam yeməyindən sonra ABŞ-İran sazişinin nüsxəsini imzalayıb.***





"Unikal" xəbər verir ki, bu barədə CNN məlumat yayıb. Məlumata görə, Tramp jurnalistlərə "Sənəd imzalanıb" deyib. Daha sonra ABŞ tərəfi imzalanmış sənədin fotosunu İran rəsmilərinə göndərib.

Bununla yanaşı, "NewsNation" telekanalının məlumatına görə, memorandum İran Prezidenti Məsud Pezeşkian tərəfindən də imzalanıb.

Məlumata əsasən, sənədin ilkin variantı bazar günü elektron formada ABŞ-ın vitse-prezidenti Cey Di Vens və İran parlamentinin sədri Məhəmməd Baqir Qalibaf tərəfindən imzalanıb.

"Bazar günü qarşılıqlı anlaşma memorandumu elektron qaydada vitse-prezident Cey Di Vens və parlament sədri Məhəmməd Bager Qalibaf tərəfindən imzalanmışdı. İndi isə sənədi Prezident Tramp və Prezident Pezeşkian imzalayıblar", - deyə telekanalın məlumatında bildirilir.

"Tasnim" agentliyi İran Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi İsmayıl Bəqaiyə istinadən məlumat yayıb ki, ABŞ və İran arasında qarşılıqlı anlaşma memorandumu elektron qaydada imzalanıb və sənədin İsveçrədə ayrıca imzalanma mərasimi nəzərdə tutulmur.

# Paşinyan dəli kimi danışmağının səbəbini açıqladı

***"Mən ehtiraslı natiqəm. Əgər indi məni narahat edən bir mövzu haqqında danışsam, daha da ehtiras və enerji ilə danışacağam".***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan brifinq zamanı deyib.

O, əsəbi çıxışlarına görə onu "dəli" adlandıranlara belə cavab verib: "1 il əvvələ qayıdaq - mən belə danışırdım, 2 il əvvəl - mən belə danışırdım, 10-15 il əvvəl də mən belə danışırdım. Mən belə danışıram və belə ünsiyyət qururam, çünki bu mövzular çox vacib, üzvi mövzulardır.

Mən bu mövzularla yaşayıram, bu mənim üçün siyasi tamaşa deyil, yaşadığım bir həyatdır, ona görə də hansı titulu qoymaq istəsəniz, sizin haqqınızdır. Mən həmişə sərt danışıram, gedib bu gün adlarını çəkdiyiniz eyni insanlara, deputat olduğum zaman parlamentdə onlar haqqında danışdıqlarıma baxıram. İndi yaxşı və ya pis olduğunu bilmirəm, amma mən belə danışıram və ünsiyyət qururam".

***Ağarza Elçinoğlu***

# "Razılaşma İranın xeyrinədir" - Qalibaf

***İran Parlamentinin spikeri Məhəmməd Bager Qalibaf ABŞ ilə bağlanan razılaşmanın Hörmüz boğazının statusunu Tehranın xeyrinə dəyişdirdiyini bildirib.***

"Unikal" İran mətbuatına istinadən xəbər verir ki, onun sözlərinə görə, ABŞ İran üçün "Hörmüz boğazının potensialını reallığa çevirib".

Qalibaf İranın Hörmüz boğazında suveren hüquqlara malik olduğunu və müvafiq xidmətlər üçün ödəniş alacağını vurğulayıb.

"İranın Hörmüz boğazında suveren hüquqları var və təbii ki, xidmətlərimiz üçün ödəniş alacağıq", - deyə o bildirib.

O, həmçinin qeyd edib ki, yekun razılaşma əldə olunsa və BMT Təhlükəsizlik Şurasının qətnaməsi ilə təsdiqlənsə belə, ABŞ-yə qarşı etimadsızlıq ən yüksək səviyyədə qalır.



Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp ABŞ-İran sazişinin nüsxəsini imzalayıb.

***Gülayə Mecid***

# Moskva hava limanlarında uçuşlar təxirə salındı

***Moskva hava limanlarında dron hücumları səbəbindən 53 reys iki saatdan çox təxirə salınıb.***



"Unikal" xəbər verir ki, bu barədə Rusiya Nəqliyyat Nazirliyi məlumat yayıb. Vnukovo, Domdedovo, Jukovski və Şeremetyevo hava limanlarında 18 iyun gecəsi və cümə axşamı səhəri məhdudiyyətlər tətbiq edilib.

# Dünya çempionatı: Kolumbiya Özbəkistana qalib gəldi

***Futbol üzrə dünya çempionatının K qrupunda mübarizə aparan Özbəkistan komandası Kolumbiya ilə qarşılaşıb.***

"Unikal" xəbər verir ki, görüş 3:1 hesabı ilə Kolumbiyanın qələbəsi ilə yekunlaşıb.

Bu, Özbəkistanın dünya çempionatları tarixində debüt matçı olub.

Qeyd edək ki, bu qrupun ilk oyununda Portuqaliya Konqo Demokratik Respublikası ilə bacarmayıb. Qarşılaşmada 1:1 hesablı heç-heçə qeydə alınıb.





Bu gün dünya çempionatında ikinci turun oyunlarına start veriləcək. A qrupunda Çexiya Cənubi Afrika Respublikası ilə qarşılaşacaq. B qrupunda isə İsveçrə yığması Bosniya və Herseqovina komandası ilə üz-üzə gələcək.

# Şəhid Afərin Qulamzadənin xatirəsinə həsr olunan futbol turniri keçirilib

***Azərbaycan ordusunun əsgər və zabitləri 44 günlük haqq savaşımızda ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda edərək xalqımıza misilsiz, əbədi bir qürur miras qoydular.***

Bu miras şanlı zəfərimizin qəhrəmanlıq simvoluna çevrilən Vətən övladlarının adına həmişə şöhrət gətirəcək. Doğma Qarabağın azadlığı uğrunda şəhid olub ölümsüzlüyə qovuşan belə qəhrəmanlardan biri də Lənkəran rayonunun Mamusta kəndində dünyaya göz açan Afərin Qulamzadədir. Afərin bu dünyada cəmi 21 il yaşadı. Qaldı ki, yaşının çərçivəsinə sığmayan hünəri adını tarixə yazdı. El-obasına, torpağına sonsuz məhəbbət mücəssəməsinə dönən oğlunu xalq heç vaxt unutmur.



Bu günlər isə doğulub boya-başa çatdığı doğma kənd stadionunda Lənkəran - Astara Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi Afərin Qulamzadənin xatirəsinə həsr olunmuş futbol idman növü üzrə Lənkəran-Astara region turnirinin açılış mərasimi keçirildi.

Turnirin açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni oxundu, müstəqilliyimiz uğrunda qan tökən, can qoyan Vətən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anıldı.

Açılış mərasimində Lənkəran - Astara Regional Gənclər və İdman İdarəsinin İdman sektorunun müdirinin, Mamusta kənd icra nümayəndəsinin, şəhid ailələri və kənd sakinlərinin iştirak etdikləri turnirin təşkilində məqsəd gənclər arasında futbol idman növünün inkişafı, sağlam həyat tərzinin təbliği, idmançılar arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, onların yarış təcrübəsinin artırılması, eləcə də Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinin yad edilməsi və gələcək nəsillərə tanıdılmasıdır.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# "Yeni mövsümdən komandanın adı “Quba” olacaq" - "Səbail"in prezidenti

***"Hazırda “Səbail”də maliyyə vəziyyəti stabildir. Güclü heyət formalaşdırmaq üçün çalışmalarımız davam edir. Qarşıya qoyulan əsas məqsəd çempionluq və Premyer Liqaya yüksəlməkdir”.***

“Unikal” xəbər verir ki, bu sözləri "Azərtac"a açıqlamasında Azərbaycan Birinci Liqasında mübarizə aparan "Səbail" klubunun yeni prezidenti Mirzə Bayrampur deyib.

O, komandanın qarşısına yüksək hədəflər qoyduqlarını bildirib: “Əvvəllər “Şimal” klubunu İkinci Liqadan Birinci Liqaya yüksəltmişəm. Ötən mövsüm isə “Şahdağ Qusar”da icraçı direktor vəzifəsində çalışmışam. “Səbail”də əsas məqsədimiz Birinci Liqanın qalibi olaraq birbaşa Premyer Liqaya vəsiqə qazanmaqdır. Komandanı Premyer Liqa səviyyəsinə uyğun formalaşdırmaq istəyirik. Bunun üçün həm təcrübəli, həm də perspektivli yerli futbolçuların cəlb olunması istiqamətində iş aparırıq. Baş məşqçi vəzifəsini Elnur Abdullayev icra edəcək”.

Klub rəhbəri stadion məsələsi ilə bağlı hazırda iki variant üzərində işlədiklərini söyləyib: “ASCO Arena və Quba şəhər stadionu ilə bağlı danışıqlar aparılır. Bu prosesdə AFFA ilə də müzakirələr davam edir. Əgər Quba stadionu ilə bağlı məsələlər müsbət həllini tapsa, klub fəaliyyətini həmin şəhərdə davam etdirəcək. Belə olan halda, komandanın adı da dəyişdiriləcək “Quba” olacaq. Əks halda, qarşıdakı mövsümdə ev oyunlarımızı ASCO Arenada keçirəcəyik. Bununla bağlı danışıqlar yekun mərhələdədir. Lakin planımız növbəti mövsümdən etibarən “Quba” adı altında fəaliyyət göstərməkdir”.

# "Bavariya" "Real"ı geridə qoydu

***"Bavariya" dünya çempionatlarının final mərhələlərində oyunçularının vurduğu qolların sayına görə rekorda imza atıb.***



"Unikal" xəbər verir ki, "Stats Foot"un məlumatına əsasən, DÇ-2026-nın qrup mərhələsinin 1-ci turundan sonra Münhen klubunun futbolçuları mundiallarda ümumilikdə 83 qol vurublar. Bununla da Almaniya təmsilçisi 82 qolu olan "Real"ı geridə qoyaraq siyahının zirvəsinə yüksəlib. İlk üçlüyü isə 76 qolla "Barselona" tamamlayır.

Qeyd edək ki, DÇ-2026-nın ilk turunda "Bavariya"nın futbolçuları Harri Keyn (İngiltərə), Camal Musiala (Almaniya) və Luis Diasın (Kolumbiya) vurduğu qollar klubun bu göstəricidə liderliyə yüksəlməsində mühüm rol oynayıb.

# Azərbaycanı Dünya Seriyasında onlar təmsil edəcək

***İyunun 20-21-də Gürcüstanın Batumi şəhərində böyüklər arasında Dünya Seriyasının III mərhələsi keçiriləcək.***

Milli komandanın baş məşqçi Oyan Nəzərianinin rəhbərliyi altında qonşu ölkədə Rübail İbrahimli (70 kq), Sahib Dadaşov, Vüsal Əliyev (hər ikisi 80 kq), Əşrəf Aşırov, İlqar Nəzərli (hər ikisi 90 kq) və İslam İlyasov (+90 kq) mübarizə aparacaq.

İlk yarış günündə təsnifat mərhələsinin və qruplarda ilk 2 turun görüşləri keçiriləcək. Növbəti gün isə qrup mərhələsində sonuncu turun görüşləri, yarımfinallar və medallar uğrunda qarşılaşmalar baş tutacaq. Dünya Seriyasında I-S dərəcəli hakimim Bəşir İsazadə ədaləti qoruyacaq.

# "Qarabağ"ın rəqibindən qələbə



***"Qarabağ"ın Avropa Liqasının 1-ci təsnifat mərhələsindəki rəqibi "Vestri" İslandiya 1-ci liqasında (statusuna görə 2-ci liqa) 10-cu tur oyununa çıxıb.***

QOL.az xəbər verir ki, komanda "Aeqir" ilə qarşılaşıb. Görüşdə "Vestri" 3:2 hesablı qələbə qazanıb.

Hazırda "Vestri" turnir cədvəlində 16 xalla 4-cüdür.

Qeyd edək ki, "Qarabağ"la sözügedən kollektiv arasında ilk oyun iyulun 9-da Bakıda, cavab matçı isə iyulun 16-da İslandiyada keçiriləcək.

"Vestri" - "Aeqir" - 3:2

Qollar: Svavarsson, 13, Balde, 22, Haftorson, 56 - Uilyard, 25, Coninuson, 74-pen.

# Azərbaycan taekvondoçuları klublararası Avropa çempionatının qalibi olublar

***Bosniya və Herseqovinanın Sarayevo şəhərində taekvondo üzrə klublararası Avropa çempionatı keçirilib.***





AZƏRTAC xəbər verir ki, yarışda Azərbaycanı təmsil edən idmançılar uğurlu çıxış edərək 2 qızıl, 3 gümüş və 1 bürünc medal qazanıblar.

Aydan Hüseynova (36 kiloqram, “İrəvan” TK) və Rada Əsəd (44 kiloqram, “Mübariz” TK) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

İslam Quluzadə (33 kiloqram, “Alpman” TK), Gökalp Çilingir (40 kiloqram, Nərimanov RİK) və Renad Zülfiqarlı (+57 kiloqram, “Alov” TK) yarışı gümüş medalla başa vurublar.

Əkbər Tağıyev (+30 kiloqram, “Atlet” TK) isə bürünc mükafata sahib çıxıb.

Azərbaycan klub təmsilçiləri ümumi komanda hesabında bütün rəqiblərini qabaqlayaraq birinci yeri tutub və çempionatın kubokunu qazanıblar.